Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası

Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası

**AZƏRBAYCAN RESPUBLİKASINDA ƏMƏYİN MÜHAFİZƏSİ**

**QANUNVERİCİLİK VƏ PRAKTİKA**

# MONİTORİNQİN NƏTİCƏLƏRİNƏ DAİR HESABAT

**BAKI-2008**

**Ümumi redaktə və tərtibat:**
*Sahib Məmmədov*

**Monitorinqi həyata keçirən heyət**
*Sahib Məmmədov*
*Asif Bəkirli*
*Həmid Xəlilov*

Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə çap edilmişdir

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası tərəfindən həyata keçirilən "**Təhlükəsiz əmək şəraitinin təmin olunması sosial tərəfdaşlığın formalaşmasında ən mühüm vəzifə kimi**" adlı layihə çərçivəsində hazırlanaraq çap olunmuşdur.
**Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası**
**Ünvan: Bakı ş. AZ 1014, Rəsul Rza küç.87, m.9**
Tel: (99 412) 495 85 54;
**E-mail: clrpl@bakinter.net; smamedov@rambler.ru**
**www.clrpl.org**

**İSBN- 978-9952-25-112-8**

© VƏHML

## MÜNDƏRİCAT

**XÜLASƏ .......................................................................................... 4**

**AZƏRBAYCAN RESPUBLİKASINDA ƏMƏYİN MÜHAFİZƏSİNİN QANUNVERİCİLİK ƏSASLARI.............................................. 6**

Azərbaycan Respublikasının Əmək Məcəlləsi və digər normativ hüquqi aktlarda əməyin mühafizəsi normaları və qaydaları.............. 7

Əməyin mühafizəsi normaları, qaydaları və prinsipləri ...................... 8

Əməyin mühafizəsinin hüquqi, təşkilatı-texniki və maliyyə təminatı ....10

İşçinin əməyin mühafizəsi hüququnun həyata keçirilməsi üçün təminatları .............................................................................22

Əməyin mühafizəsi normalarına və qaydalarına əməl olunmasına nəzarət və işəgötürənlərin məsuliyyəti.............................................23

Texniki təhlükəsizlik haqqında Azərbaycan Respublikasinin qanunu .. 28

İstehsalatda baş verən bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində işçilərin sağlamlığına vurulan zərərin və bu səbəblərdən həlak olanların ailə üzvlərinə ödənclərin verilməsi ilə bağlı olan normativ sənədlər ...........................................................................................29

**TİKİNTİ SEKTORUNDA ƏMƏYİN MÜHAFİZƏSİ VƏ TƏHLÜKƏSİZLİK TEXNİKASI QAYDALARININ POZULMASI NƏTİCƏSİNDƏ İSTEHSALATDA BƏDBƏXT HADİSƏLƏRİN BAŞ VERMƏSİNƏ ŞƏRAİT YARADAN ƏSAS SƏBƏBLƏR .................33**

**İSTEHSALAT ZƏDƏLƏNMƏSİ VƏ PEŞƏ XƏSTƏLİKLƏRİ NƏTİCƏSİNDƏ ZƏRƏRÇƏKƏNLƏRİN KƏMİYYƏT GÖSTƏRİCILƏRİ.. 38**

**EKSPERTLƏRLƏ STRUKTURLAŞMAMIŞ İNTERVÜLƏR ........40**

**MONİTORİNQİN NƏTİCƏLƏRİNƏ DAİR YEKUN RƏY VƏ TÖVSİYYƏLƏR.........................................................................43**

# XÜLASƏ

Həyata keçirilən monitorinqin əsas məqsədi ölkənin əmək sferasında əməyin mühafizəsi normalarının və qaydalarının, habelə bu norma və qaydaların tətbiqi praktikasının real vəziyyətini öyrənmək, monitorinq nəticəsində qanunvericilikdə mövcud olan boşluqların və praktikada olan qüsurların aradan qaldırılması üçün tövsiyyələr hazırlayıb müvafiq dövlət qurumlarına təqdim etmək olmuşdur.

Bu baxımdan ilk növbədə ölkədə əməyin mühafizəsi ilə bağlı mövcud əsas normalar analiz edilmiş, bu normaların ölkə Konstitusiyasına və ölkənin tərəfdar çıxdığı müvafiq beynəlxalq normalara nə dərəcədə uyğun olması müəyyənləşdirilmişdir.

Son illərdə rəsmi statistikaya görə istehsalatda ən çox bədbəxt hadisələr tikinti sektorunda baş verir. Bədbəxt hadisələr nəticəsində ölən insanların sayına görə də tikinti sektoru yüksək göstəricilərə malikdir. Eyni zamanda tikinti sektorunda baş verən bədbəxt hadisələrin də əksəriyyət hissəsi yaşayış və qeyri yaşayış sahələrinin tikintisi, təmiri və rekonstruksiyası zamanı baş verir. Bunu nəzərə alaraq monitorinq zamanı tikinti sektorunun məhz bu sferası (yaşayış və qeyri yaşayış sahələrinin tikintisi, təmiri və rekonstruksiyası) əsas diqqət mərkəzində saxlanılmışdır.

Monitorinq əsasən hündür mərtəbəli yaşayış və ya qeyri-yaşayış sahələrinin tikildiyi sahələrdə həyata keçirilmişdir. Bütövlükdə 30 tikinti sahəsi monitorinqə cəlb edilmişdir. Monitorinq nəticəsində bu sahələrdə əməyin mühafizəsi və texniki təhlükəsizlik qaydalarına əməl olunma vəziyyəti müxtəlif monitorinq alətləri tətbiq edilməklə müşahidə edilmiş və əldə edilən qənaətlər əsasında yekun rəy hazırlanmışdır. Hesabatda bu istiqamət ayrıca əhatə olunmuş və tikinti sektorunda bədbəxt hadisələrin baş verməsi və bunun nəticəsində işçilərin peşə əmək qabiliyyətini uzun müddətə və ya daimi itirməsi və ya bu səbəbdən işçinin həlak olmasının səbəbləri göstə-

rilmişdir. Uyğunsuzluqların aradan qaldırılması ilə bağlı təkliflər irəli sürülmüşdür.

Hesabatda həmçinin istehsalatda baş verən bədbəxt hadisələr və peşə xəstəlikləri zamanı zərərə məruz qalanlara dair statistika analiz edilmişdir. Analiz yalnız rəsmi statistikanı əhatə etmişdir. Statistikanın analizi göstərmişdir ki, bu göstəricilər real vəziyyəti əks etdirmir. İstehsalatda baş verən bədbəxt hadisələrin əksəriyyəti gizlədilir və nəticədə bu hadisələr statistikada əks olunmur. Eyni zamanda rəsmi statistika onu göstərmişdir ki, ölkənin əmək sferasında əməyin mühafizəsinin təmin olunması ilə bağlı bir sıra tədbirlərin, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi, inzibati və maddi məsuliyyətin artırılması ciddi effekt verməmişdir.

Əməyin mühafizəsi normalarının və qaydalarının pozulmasının səbəbləri başqa bir monitorinq aləti tətbiq edilməklə də araşdırılmışdır. Əmək sferasında, xüsusən də əməyin mühafizəsi ilə bağlı sahədə təcrübəsi olan ekspertlərlə strukturlaşmamış intervülər təşkil olunmuşdur. Ekspertlərlə həyata keçirilən intervülər də əvvəlki monitorinq alətlərinin tətbiqi vasitəsi ilə əldə edilən nəticələri təsdiq etmişdir.

Hesabatın sonunda yekun rəy və tövsiyyələr əks olunmuşdur. Tövsiyyələr həm qanunvericiliyin, həm də mövcud praktikanın təkmilləşdirilməsi ilə bağlıdır. Bu tövsiyyələr həm norma yaradan dövlət orqanlarına, həm həmkarlar ittifaqlarına, həm vətəndaş cəmiyyəti strukturlarına ünvanlanmışdır.

## AZƏRBAYCAN RESPUBLIKASINDA ƏMƏYIN MÜHAFIZƏSININ QANUNVERICILIK ƏSASLARI

Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsinin 6-cı bəndinə əsasən «hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək» hüququ vardır.

Əməyin mühafizəsi normaları və qaydaları Azərbaycan Respublikasının Əmək Məcəlləsi, digər qanunvericilik aktları, səlahiyyətləri çərçivəsində müvafiq icra hakimiyyəti orqanlarının qəbul etdiyi normativ hüquqi aktlarla, həmçinin Azərbaycan Respublikasının tərəfdar çıxdığı müvafiq beynəlxalq müqavilələrlə müəyyən edilir.

Bu və ya digər şəkildə əməyin mühafizəsinə dair beynəlxalq standartları müəyyən edən bir sıra dövlətlərarası müqavilələr Azərbaycan Respublikası tərəfindən ratifikasiya edilmişdir. Bu müqavilələr içərisində ilk növbədə **İqtisadi, sosial və mədəni hüquqlara dair Beynəlxalq Paktı** göstərmək olar. Bundan əlavə Azərbaycan Respublikası Beynəlxalq Əmək Təşkilatının Əməyin mühafizəsinə dair bir sıra konvensiya və tövsiyyələrini ratifikasiya etmiş və tərəfdar çıxmışdır. Bunların sırasında "Sənayedə və ticarətdə əməyin təftişi haqqında Konvensiya", "Kənd təsərrüfatında əməyin təftişi haqqında Konvensiya", "Rəngsazlıq işlərində qurğuşunlu boyaq haqqında Konvensiya", İstehsal Mühiti (Havanın çirklənməsi, səs və titrəmə) haqqında Konvensiya", "İstehsal Mühiti (Havanın çirklənməsi, səs və titrəmə) haqqında tövsiyyə", "Ticarətdə və idarələrdə gigiyena haqqında Konvensiya", "Ticarətdə və idarələrdə gigiyena haqqında tövsiyyə", "Dokerlərin bədbəxt hadisələrdən mühafizəsi haqqında Konvensiya", "Bədbəxt hadisələrin qarşısının (dənizçilər) haqqında Konvensiya", "Dənizçilər arasında bədbəxt hadisələrin qarşısının alınması haqqında tövsiyyə", "Dokerlərin bədbəxt hadisələrdən mühafizəsi haqqında tövsiyyə" və s. vardır.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı İqtisadi Sosial və Mədəni Hüquqlara dair Beynəlxalq Paktın 7-ci maddəsinə görə:

**Bu Paktda iştirak edən dövlətlər hər bir insanın ədalətli və əlverişli**

**əmək şəraiti hüququnu tanıyır. Bu hüquqa, o cümlədən, aşağıdakılar daxildir:**

**a) Bütün zəhmətkeşlərə minimum aşağıdakıları təmin edən haqq;**

**i) Heç bir fərq qoyulmadan eyni dəyərə malik əmək üçün ədalətli əmək haqqı və bərabər ödəniş; həm də qadınlara eyni əməyə görə bərabər haqq ödəməklə, kişilərin istifadə etdiklərindən pis olmayan əmək şəraiti təmin edilməlidir;**

**ii) Bu paktın qərarlarına müvafiq olaraq onların özləri və ailələri üçün qənaətbəxş güzəran;**

**b) Təhlükəsizlik və gigiyena tələblərinə cavab verən iş şəraiti;**

**c) Müvafiq olaraq daha yüksək vəzifələrə irəli çəkilmək üçün hamıya yalnız iş stajı və ixtisas səviyyəsi əsasında eyni şərait yaradılması;**

**d) İstirahət, asudə vaxt və iş vaxtının ağlabatan şəkildə məhdudlaşdırılması və ödənişli vaxtaşırı məzuniyyət, eləcə də bayram günləri üçün haqq.**

## Azərbaycan Respublikasının Əmək Məcəlləsi və digər normativ hüquqi aktlarda əməyin mühafizəsi normaları və qaydaları

Azərbaycan Respublikasının müvafiq hakimiyyət orqanlarının, fiziki və hüquqi şəxslərin təsis etdikləri mülkiyyət və təşkilati - hüquqi formasından asılı olmayaraq Respublikanın ərazisində yerləşən bütün müəssisələrdə, idarələrdə, təşkilatlarda, eləcə də müəssisə yaradılmadan işçilərlə əmək müqaviləsi bağlanmış iş yerlərində, həmçinin onun hüdudlarından kənarda fəaliyyət göstərən Azərbaycan Respublikasının səfirliklərində, Konsulluqlarında, beynəlxalq sularda Azərbaycan Respublikasının bayrağı altında üzən gəmilərdə, şelf qurğularında, o cümlədən işəgötürənin xammalından (materialından), istehsal vasitələrindən istifadə etməklə əmək funksiyasını öz evində yerinə yetirən işçilərə də şamil edilən *1 fevral 1999-cu ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmış 618-1Q nömrəli Qanuna əsasən Azərbaycan Respublikasının Əmək Məcəlləsi 1 iyul 1999-cu ildə qüvvəyə minmişdir.*

Azərbaycan Respublikasının Konstitusiyasında əksini tapmış və Azərbaycan dövlətinin əsas qayğılarından biri olan - *«hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləməsi»* və bu istiqamətdə fəaliyyət göstərməsi üçün müvafiq səlahiyyətlər, vəzifələr, təminatlar və göstərişlər Azərbaycan Respublikasının Əmək Məcəlləsinin «Əməyin Mühafizəsi» bölməsində (IX) əksini tapmışdır. «Əməyin Mühafizəsi» bölməsi 4 fəsildən ibarətdir:

## Əməyin mühafizəsi normaları, qaydaları və prinsipləri

Adından göründüyü kimi bu fəsildə əməyin mühafizəsi normalarından, qaydalarından, prinsiplərindən və əməyin mühafizəsi məsələlərinin həllində ictimai birliklərin iştirakından bəhs edilir.

***Əməyin mühafizəsi normaları və qaydaları*** dedikdə, Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə, səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikası Nazirlər Kabineti və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və digər səlahiyyətli orqanlar tərəfindən qəbul və təsdiq edilən normativ hüquqi aktlarla, habelə Azərbaycan Respublikasının qoşulduğu və ya tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilən normativlər və standartlar başa düşülür.

*22 noyabr 1998-ci ildə Beynəlxalq (regional) və dövlətlərarası standartların, normaların, qaydaların və tövsiyyələrin Azərbaycan Respublikası ərazisində tanınması və tətbiq edilməsi Qaydaları Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmişdir.*

*30 dekabr 1999-cu ildə «Normativ hüquqi aktlar haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır.*

«Normativ hüquqi aktlar haqqında» Azərbaycan Respublikası Qanununun 8-ci maddəsində göstərilmişdir ki, *Azərbaycan Respublikasının dövlət müstəqilliyi elan edilənədək qüvvədə olmuş, sonradan ləğv edilməmiş və Azərbaycan Respublikasının Konstitusiyasına zidd olmayan aktlar Azərbaycan Respublikasında hüquqi qüvvəsini saxlayır.*

Əməyin Mühafizəsi bölməsinin otuz üçüncü fəslinin 207-ci maddəsinin 3-cü bəndinə əsasən: *«Əməyin mühafizəsi üzrə normativ-hüquqi aktların tələbləri, əməyin mühafizəsi normaları, standartları, qaydaları əmək münasibətlərinin tərəfləri və digər fiziki və hüquqi şəxslər üçün məcburidir».*

Əməyin mühafizəsi dedikdə hər zaman işlədilən və bir-biri ilə bağlı üç əsas məfhumla - *müəssisə, işəgötürən və işçi* anlayışlarına hər zaman rast gəlinir.

***Müəssisə*** - mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq olaraq yaradılan və fəaliyyət göstərən, işçilər tərəfindən haqqı ödənilməklə peşəsi, sənəti, ixtisası üzrə əmək müqaviləsi ilə müəyyənləşdirilmiş işlərin (xidmətlərin) yerinə yetirildiyi, əsas məqsədi məhsul istehsal etməklə (xidmətlər göstərməklə) mənfəət əldə edən hüquqi şəxs statusuna malik müstəqil təsərrüfat subyektidir.

***İşəgötürən*** - təşkilati - hüquqi formasından asılı olmayaraq müəssisələrdə işçilərlə fərdi əmək müqaviləsini bağlamaq, ona xitam vermək, yaxud onun şərtlərini dəyişdirmək hüququna malik mülkiyyətçi və ya onun müvəkkil

etdiyi müəssisə rəhbəri, səlahiyyətli orqanı, eləcə də qanunvericiliklə qadağan olunmayan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsdir.

***İşçi*** - fərdi əmək müqaviləsi ilə müvafiq sənət, peşə, ixtisas üzrə mülkiyyət və təşkilati - hüquqi formasından asılı olmayaraq müəssisələrdə haqqı ödənilməklə çalışan fiziki şəxslərdir.

Əməyin mühafizəsinə aid qanunvericilikdə nəzərdə tutulmuş bütün tələblər nəzərə alınaraq dövlət hakimiyyəti orqanları, mülkiyyətçilər, işəgötürənlər və işçilər tərəfindən əməyin mühafizəsinin təmin olunması «Əməyin Mühafizəsi» bölməsinin otuz üçüncü fəslinin 209-cu maddəsində göstərilmiş aşağıdakı əsas prinsiplərə uyğun olaraq həyata keçirilir:

- *dövlət hakimiyyəti orqanlarının, mülkiyyətçilərin, işəgötürənlərin və işçilərin əmək şəraitinin və əməyin mühafizəsinin yaxşılaşdırılmasına, istehsal qəzalarının, xəsarətlərinin, zədələrinin və peşə xəstəliklərinin qarşısının alınmasına yönəldilmiş fəaliyyət birliyi;*
- *işçinin həyatının və sağlamlığının müəssisənin istehsal fəaliyyətinin nəticələrindən üstün tutulması;*
- *əməyin mühafizəsi sahəsində fəaliyyətin iqtisadi və sosial siyasətin digər istiqamətləri ilə, habelə ətraf mühitin mühafizəsi sahəsində fəaliyyətlə əlaqələndirilməsi;*
- *mülkiyyət və təşkilati-hüquqi formasında asılı olmayaraq, bütün müəssisələr üçün əməyin mühafizəsi sahəsində vahid tələblərin müəyyən edilməsi;*
- *əməyin mühafizəsi tələblərinin bütün müəssisələrdə yerinə yetirilməsinə müstəqil və səmərəli nəzarətin həyata keçirilməsi;*
- *əməyin mühafizəsi sahəsində ümumbəşəri elmi-texniki tərəqqidən, qabaqcıl təcrübədən geniş istifadə edən, habelə təhlükəsizlik texnikasının və texnologiyanın səmərəli mühafizə vasitələrini hazırlayan və tətbiq edən işəgötürənlərin müvafiq qaydada və vasitələrlə həvəsləndirilməsi;*
- *müəssisələrdə əməyin yüksək mühafizəsi şəraiti yaradılmasına yönəldilmiş vergi siyasətinin aparılması;*
- *əməyin mühafizəsinin maliyyələşdirilməsində dövlətin iştirakı;*
- *əməyin mühafizəsi normalarının müntəzəm olaraq təkmilləşdirilməsi;*
- *işçilərin xüsusi geyim və ayaqqabı, digər fərdi mühafizə vasitələri ilə, müalicə-profilaktik yeməklə və digər vasitələrlə pulsuz təmin edilməsi;*
- *təhsil müəssisələrində əməyin mühafizəsi üzrə mütəxəssislərin hazırlanması;*
- *istehsalatda baş vermiş hər bir bədbəxt hadisənin hökmən təhqiq edilməsi, uçota alınması, təhlil edilməsi və bunun əsasında istehsalat xəsarətlərinin, zədələrinin və peşə xəstəliklərinin vəziyyəti barədə işçilərə dürüst məlumatların verilməsi;*
- *istehsalatda bədbəxt hadisələrdən zərərçəkmiş və ya peşə xəs-*

*təliklərinə tutulmuş işçilərin mənafelərinin sosial, maddi və mənəvi müdafiəsi;*

- *həmkarlar ittifaqlarının, müəssisələrin və ayrı-ayrı fiziki, hüquqi şəxslərin əməyin mühafizəsini təmin etməyə yönəldilmiş fəaliyyətinə hərtərəfli yardım olunması;*
- *əməyin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlıq münasibətlərinin genişləndirilməsi.*

Yuxarıda qeyd olunan prinsiplərdə göstərildiyi kimi əməyin mühafizəsi normalarının müntəzəm olaraq təkmilləşdirilməsi Respublika iqtisadiyyatının bütün sahələrində təhlükəsizliyin təmin edilməsinə və bu sahədə inkişafa səbəb olardı. Lakin əməyin mühafizəsi üzrə qüvvədə olan sahə qaydalarının və normalarının müntəzəm olaraq təkmilləşdirilməməsi, eyni zamanda bir sıra normativ hüquqi sənədlərin vaxtında işlənilməməsi nəticəsində problemlər yaranır.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi elan edilənədək qüvvədə olmuş, sonradan ləğv edilməmiş və Azərbaycan Respublikasının Konstitusiyasına zidd olmayan aktların Azərbaycan Respublikasında hüquqi qüvvəsini saxladığı qanuni olsa da bu sənədlərin də müvafiq orqanlar tərəfindən dövlət dilində işlənilib mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, bütün müəssisələr üçün əməyin mühafizəsi sahəsində vahid tələblərin müəyyən edilməsinə və icrasına nəzarətin həyata keçirilməsinə ehtiyac vardır.

Deyilənlərlə yanaşı ***təhsil müəssisələrində əməyin mühafizəsi üzrə mütəxəssislərin hazırlanması*** işi də zamanın tələblərinə cavab vermir.

Eyni zamanda bu fəslin 210-cu maddəsində əməyin mühafizəsi məsələlərinin daha etibarlı, hərtərəfli və obyektiv həll edilməsi, həmçinin dövlət hakimiyyəti orqanlarına, habelə işəgötürənlərə köməklik göstərilməsi üçün əməyin mühafizəsinin təmin edilməsinə aid normativ-hüquqi aktları qəbul edərkən müvafiq ictimai birliklərin təkliflərin və tövsiyyələrinin nəzərə alınması məqsədəuyğundur.

İctimai birliklər yaradılarkən ictimai birliklər haqqında qanunvericiliyə müvafiq olaraq fəaliyyət göstərməlidir.

İşəgötürənlər, işçilər, habelə ayrı-ayrı şəxslər tərəfindən yaradılmış ictimai birliklərin təklif və tövsiyyələri dövlət hakimiyyəti orqanları və işəgötürənlər tərəfindən nəzərə alınmalı, eləcə də onlarla sıx əməkdaşlıq edilməlidir.

## Əməyin mühafizəsinin hüquqi, təşkilatı-texniki və maliyyə təminatı

Əmək Məcəlləsində verilmiş norma və qaydalar əsasən daha ümumi xarakter daşıyır.

Əmək Məcəlləsinin Əməyin Mühafizəsi bölməsinin otuz dördüncü fəsilinin 211-ci maddəsinin 1-ci bəndində göstərildiyi kimi Əməyin Mühafizəsi qaydalarının

hər yerdə eyni cür yerinə yetirilməsini, Əmək Məcəlləsi ilə müəyyən edilmiş hallarda əmək şəraitinin xüsusiyyətlərinin, əlavə məzuniyyət hüququnun və digər normaların tətbiqini təmin etmək məqsədi ilə müvafiq icra hakimiyyəti orqanı olan Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən Respublika üzrə ***vahid, əhatəli siyahıları və onların tətbiqi qaydaları*** təsdiq edilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 fevral 2002-ci il tarixli, 30 nömrəli qərarı ilə *«Işləri yerin altında görülən yeraltı istehsalatların, şaxtaların, tunellərin, qurğuların və digər iş yerlərinin» Siyahısı* təsdiq edilmişdir. Bu Siyahıda yeraltı dağ-mədən işləri, yeraltı üsulla civə filizlərinin çıxarılması, kimya sahəsi üzrə yeraltı dağ-mədən işləri, mərgümüş tərkibli filizlər çıxarılan sahə, duzlu məhlullar çıxarılan mədən sahələri, dağ-mədən şaxtasının açılması, azbest hasilatı yeraltı dağ-mədən işləri, dağ-mədən işlərinin açılması, metropolitenlərin, tunellərin və digər yeraltı tikililərin (qurğuların) inşası və yenidən qurulması, mənzil-kommunal təsərrüfatı, dəmir yolu nəqliyyatı və metropoliten iş, təmir və xidmət sahələrinin müvafiq siyahıları əksini tapmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 yanvar 2000-ci il tarixli, 1 saylı qərarı ilə *«Işçinin səhhətinə, sağlamlığına mənfi təsir göstərən amillər olan ağır, zərərli və təhlükəli əmək şəraitli iş yerlərində, habelə əhalinin sağlamlığının mühafizəsi məqsədi ilə yeyinti sənayesi, ictimai iaşə, səhiyyə, ticarət və bu qəbildən olan digər iş yerlərində əmək müqaviləsi bağlanılarkən işçilərin sağlamlığı haqqında tibbi arayış tələb olunan peşələrin (vəzifələrin), iş yerlərinin» Siyahısı* təsdiq edilmişdir.

***Qadınların, yaşı 18-dən az olan işçilərin*** əməyindən istifadə olunması qadağan edilən istehsalatların və iş yerlərinin siyahıları tərtib və təsdiq edilmişdir. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 oktyabr tarixli, 1999-cu il tarixli, 170 nömrəli qərarı ilə *«Qadın əməyinin tətbiqi qadağan olunan, əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin» Siyahısı* təsdiq edilmişdir. Eyni zamanda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 mart tarixli, 2000-ci il tarixli, 58 nömrəli qərarı ilə *«Yaşı 18-dən az olan işçilərin əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin)habelə yeraltı işlərin» Siyahısı* təsdiq edilmişdir.

İnsan orqanizminə təsir edən meteoroloji şərait, atmosfer təzyiqi, səs-küy, titrəyiş, tozlar, qıcıqlandırıcı kimyəvi maddələr, elektromaqnit və elektrik sahəsi, səmərəsiz işıqlandırma, bədənin qeyri-adi vəziyyəti və s. ***istehsalat zərəri*** sayılır.

İstehsalat zərərlərinin normadan artıq təsiri *işçilərdə* peşə xəstəliklərinin əmələ gəlməsinə səbəb olur.

Torpaq və qaya işlərində, yeraltı qazmada, elektrik qaynağı və hidroizolyasiya işlərində, sement və betonla əlaqədar işlərdə istehsalat tozları əmələ gəlir ki, bu da ***pnevmokonnoz, silikoz və asbetoz xəstəliklərinə*** səbəb ola bilər.

Vibratorlarla beton qarışığı və dəmir-beton konstruksiyaların hazırlanması zamanı, beton qarışığı ilə işləyən zaman əmələ gələn titrəyişdən işçilər ***titrəyiş xəstəliyinə*** tutulurlar.

Qaynaq birləşmələrinin keyfiyyətinə qamma-defektoskopiya ilə nəzarət etdikdə, müxtəlif ionlaşdırma mənbələri ilə əlaqədar işlərdə insan orqanizmi ***şüa xəstəliyinə*** tutula bilər və s.

Bir iş növü üçün xarakterik olan peşə xəstəliyi digər iş növü üçün peşə xəstəliyi sayılmaya bilər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 yanvar 2002-ci il tarixli 7 nömrəli Qərarı ilə *«Işçinin peşə xəstəliyinə tutulmağı ehtimalı yüksək olan iş yerlərinin» Siyahısı* təsdiq edilmişdir.

Onu da qeyd etmək lazımdır ki, baş vermiş və ya baş verə biləcək peşə xəstəliklərinin vaxtında qarşısının alınmasında işçilərin işə qəbul edilərkən və işləyənlərin dövri ***tibbi müayinədən keçmələrinin*** düzgün təşkil edilməsinin və bu işin keyfiyyətlə aparılmasının böyük təsiri vardır.

Bununla əlaqədar olaraq, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən *«Tibbi profilaktik müayinələrin təkmilləşdirilməsi haqqında»* 23 yanvar 1998-ci il tarixli 13 nömrəli əmr verilmişdir. Əmrdə *«Peşə xəstəliklərinin qarşısının alınması məqsədi ilə işə daxil olarkən tibbi müayinə və dövri tibbi müayinədən keçirilməsi mütləq olan işlərdə mövcud zərərli maddələr və əlverişsiz amillərin, tibbi müayinələrdə iştirak edən ixtisaslı həkimlərin, əmək prosesində müəyyən etioloji amillər üzrə lazımi laborator və funksional-diaqnostik müayinələrin, təhlükəli, zərərli, əlverişsiz istehsalat amilləri ilə əlaqədar işə buraxılmayan tibbi əks göstərişlərin Siyahısı», «Xəstələnmə, bədbəxt hadisə hallarının qarşısının alınması, əmək təhlükəsizliyi, əhalinin sağlamlığının təmin olunması, infeksion və parazitar xəstəliklərin yayılmasına yol verilməməsi məqsədi ilə işə daxil olarkən tibbi müayinə və dövri tibbi müayinədən keçilməsi mütləq olan işlərin, tibbi müayinələrdə iştirak edən ixtisaslı həkimlərin, işin növünə görə lazımi laborator və funksional-diaqnostik müayinələrin və həmin işlərə buraxılmaya tibbi əks göstərişlərin Siyahısı»* həmçinin bir sıra təlimatlar öz əksini tapmışdır.

***Peşə xəstəliklərinin*** siyahısı, peşə xəstəlikləri diaqnozunun qoyulmasında, onun yerinə yetirilən iş və ya sənətlə əlaqələndirilməsində, əmək qabiliyyəti ekspertizası, tibbi və əmək reabilitasiyası məsələlərinin həllində, eləcə də müəssisə və təşkilatlar tərəfindən fəhlə və qulluqçuların səhhətlərinin pozulmasına görə onlara dəyən maddi zərərin ödənilməsi işi-

nin həll olunmasında istifadə olunan əsas sənəddir.

Peşə xəstəliyi üzrə əlillik qrupunun və əmək qabiliyyətini itirmə faizinin təyin olunması hüququ *Tibbi Sosial Ekspert Komissiyası (TSEK)* verilir.

Peşə xəstəliklərinin təyin olunması, peşə xəstəliklərinin siyahısı və təlimatın düzgün tətbiq olunması üzərində nəzarət Səhiyyə Nazirliyinə və V.Y.Axundov adına Milli ET Tibbi Profilaktika İnstitutu nəzdində yaradılmış mərkəzi ekspert komissiyasına həvalə olunur. *«Yolxucu xəstəliklərin immunoprofilaktikası haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 17 iyun tarixli 353 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2001-ci il 2 iyun tarixli, 110 nömrəli Qərarı ilə «Profilaktik peyvəndlərin məcburi aparılması tələb olunan işlərin» Siyahısı təsdiq edilmişdir.*

Yuxarıda sadalanan siyahılar kütləvi tirajlarla nəşr etdirilməli və iqtisadiyyatın bütün sahələri üzrə işəgötürənlərin, həmkarlar ittifaqları təşkilatlarının istifadəsinə verilməlidir. Işəgötürənlər bütün imkanları və məqbul üsulları ilə işçilərin həmin siyahılarla istənilən vaxt tanış olması və istifadəsi üçün zəruri tədbirlər görməyə borcludurlar.

Əmək Məcəlləsinin 212-ci maddəsinə görə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ***əməyin mühafizəsi sahəsində vahid dövlət siyasəti*** hazırlanır və həyata keçirilir, əmək şəraitini yaxşılaşdırmaq və əməyin mühafizəsini təmin etmək sahəsində Azərbaycan Respublikasının nazirliklərinin, dövlət komitələrinin, dövlət konsernlərinin, şirkətlərinin, idarələrinin, işəgötürənlərin vəzifələri müəyyənləşdirilir, sağlam və təhlükəsiz əmək şəraitini təmin etmək sahəsində onların fəaliyyəti əlaqələndirilir və ona nəzarət edilir.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əmək şəraitinin və əməyin mühafizəsinin yaxşılaşdırılmasına dair proqramlar təsdiq edilərkən, həmkarlar ittifaqları və işəgötürənlərin nümayəndəli orqanları ilə məsləhətləşməklə təsdiq edilir, həmçinin onların yerinə yetirilməsini təşkil və təmin edir.

Azərbaycan Respublikasının nazirlikləri, dövlət komitələri, dövlət konsernləri, şirkətləri, idarələri və dövlət konsernləri, şirkətləri, assosasiyaları və müəssisələrin birlikləri öz səlahiyyətləri daxilində həmkarlar ittifaqları təşkilatlarının, işəgötürənlərin nümayəndəli orqanlarının iştirakı ilə əməyin mühafizəsi sahəsində dövlət siyasətinin müvafiq iş yerlərində həyata keçirilməsinin ***əsas istiqamətlərini*** müəyyən edir və bu barədə nəzərdə tutulan tədbirləri həyata keçirirlər *(ƏM, maddə 213).*

Əməyin mühafizəsi üzrə sahə standartlarının, normalarının, qaydalarının, normativ-hüquqi aktlarının hazırlanması və müəyyən olunmuş qaydada təsdiq edilməsi,

müəssisələrin rəhbər işçilərinin, mütəxəssislərinin əməyin mühafizəsi normaları və qaydaları üzrə təliminin keçirilməsi və onların biliklərinin yoxlanılması, eləcə də müəssisələrdə əməyin mühafizəsi qayda və normalarının yerinə yetirilməsinə nəzarətin həyata keçirilməsi öz səlahiyyətləri daxilində müvafiq icra hakimiyyəti tərəfindən həyata keçirilir.

***Bələdiyyə orqanları*** da səlahiyyətləri daxilində əməyin mühafizəsi sahəsində dövlət siyasətinin tabeliklərində olan ərazidə həyata keçirilməsi səlahiyyətinə malikdirlər.

Əməyin mühafizəsi üzrə sahələrarası yerli əhəmiyyətli proqramların hazırlanması və onların yerinə yetirilməsi, regional problemlərin həlli və əməyin mühafizəsinin təmin edilməsində mülkiyyətçilərə yardım göstərilməsi üçün onların pay iştirakı və digər vəsaiti hesabına əməyin mühafizəsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada məqsədli fondların yaradılması və bu fondların vəsaitlərinin təyinatı üzrə xərclənməsini təmin etmək də Əmək Məcəlləsinin Əməyin Mühafizəsi bölməsinin otuz dördüncü fəsilinin 214-ci maddəsinə görə bələdiyyə orqanlarının səlahiyyətindədir.

Əməyin mühafizəsi sahəsində ***müəssisələrin mülkiyyətçilərinin və işəgötürənlərinin*** üzərinə bir sıra vəzifələr düşür. Belə ki, onlar tabeçiliklərində olan bütün işçilərin iş yerlərində əməyin mühafizəsi üzrə standartların, normaların və qaydaların yerinə yetirilməsinə bilavasitə cavabdehlik daşıyırlar.

Əməyin Mühafizəsi bölməsinin otuz dördüncü fəsilinin 215-ci maddəsində qeyd edildiyi kimi, bilavasitə iş yerlərinin sağlam sanitariya-gigiyena şəraitinin və əməyin mühafizəsinin qüvvədə olan normativlərə uyğunlaşdırılmasını, işçilərə lazımi sanitariya-məişət və müalicə-profilaktik xidmətinin təşkilini, əmək şəraiti zərərli, ağır olan və yeraltı işlərdə çalışan işçilərə pulsuz müalicəvi profilaktiki yeməklər, süd və ona bərabər tutulan digər məhsulların verilməsini təmin etmək üçün müəssisələrin mülkiyyətçiləri və işəgötürənləri tərəfindən lazımi tədbirlər həyata keçirilməlidir. Bunun üçün Əmək Məcəlləsinin Əməyin Mühafizəsi bölməsinin doqquzuncu fəsilinin 64-cü maddəsinin 2-ci bəndində göstərildiyi kimi: *«Işəgötürən müvafiq iş yerlərində əməyin mühafizəsi tədbirlərinin təmin olunmasını və ya istehsal sanitariyasının, gigiyenasının vəziyyətini müəyyən etmək və yaxşılaşdırmaq məqsədi ilə, habelə əmək məhsuldarlığının və işin səmərəliliyinin artırılması, əməyin təşkilində ən mütərəqqi üsulların, o cümlədən yeni texnikanın və texnologiyanın tətbiqi zamanı iş yerlərinin attestasiyası keçirilməlidir».* Eyni zamanda Əmək Məcəlləsinin Əməyin Mühafizəsi bölməsinin otuz dördüncü fəsilinin 222-ci maddəsinin 5-ci bəndində də iş yerlərinin əməyin mühafizəsi normalarına və qaydalarına uyğunluğu üzrə ***vaxtaşırı attestasiya aparılmasına*** müəssisələrin mülkiyyətçiləri və işəgötürənləri cavabdehlik daşıyırlar.

İş yerlərinin attestasiyası həmkarlar ittifaqları təşkilatlarının iştirakı ilə aparılmalı və göstəricilər barədə əmək kollektivinə məlumat verilməlidir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 06. 03. 2000- ci il tarixli 38 nömrəli Qərarı ilə *«İş yerlərinin attestasiyas» Qaydaları* təsdiq edilmişdir.

İş yerlərinin attestasiyası üzrə Qaydalar mülkiyyət və təşkilati hüquqi formasından asılı olmayaraq Respublika ərazisində yerləşən ***bütün müəssisə və təşkilatlar*** (bundan sonra - müəssisə) üçün əsasdır və müəssisələrdə olan ***bütün iş yerləri attestasiyadan keçirilməlidir.*** Attestasiyanın keçirilməsi müddətini 5 ildə bir dəfədən az olmayaraq müəssisə özü müəyyən edir.

İş yerlərinin attestasiyası əməyin xarakterinin və şəraitinin dəyişməsi, yeni texnika və texnologiyanın tətbiqi, əməliyyat proseslərinin dəyişdirilməsi, kollektiv mühafizə vasitələrinin yenidən qurulması, eyni zamanda Dövlət Əmək Müfəttişliyinin əmək şəraiti üzrə iş yerlərinin attestasiyasını keçirdiyi zaman aşkar olunmuş pozuntuların aradan qaldırılması məqsədi ilə həyata keçirilir.

İş yerlərinin attestasiyasını yalnız lazımi texniki vəsaitlər və normativ-sorğu bazasına malik olan laboratoriyalar həyata keçirə bilər.

Belə laboratoriyalar müəssisələrin özlərində ola bilər və yaxud təhlükəli və zərərli istehsal amillərinin parametrlərinin ölçülməsini, əmək proseslərinin ağırlıq və gərginlik ölçülərin aparılması hüququna malik olan digər laboratoriyalar cəlb edilə bilərlər.

Iş yerlərinin attestasiyası müəssisə rəhbəri tərəfindən verilmiş əmr əsasında yaradılmış ***attestasiya komissiyası*** tərəfindən həyata keçirilir.

Müəssisənin attestasiya komissiyasının tərkibinə həmkarlar ittifaqı təşkilatının nümayəndələri, əməyin mühafizəsi xidmətlərinin və əməyin təşkili üzrə peşəkar mütəxəssislər daxil edilirlər.

Əmrdə attestasiya komissiyasının sədri və attestasiya prosesinin sənədləşdirilmə işlərinə cavabdeh olan şəxs təyin edilir.

Əmək şəraiti üzrə iş yerlərinin attestasiyası zamanı iş yerində mövcud olan bütün təhlükəli və zərərli istehsalat amilləri, əməyin ağırlığı və gərginliyi qiymətləndirilir.

Ölçülər aparılarkən normativ sənədlərdə ölçü metodları göstərilən və meteoroloji cəhətdən attestasiyadan, həmçinin müəyyən olunmuş vaxtda qrafik üzrə dövlət yoxlamasından keçmiş ölçü vasitələrindən istifadə edilməlidir.

Bütün iş yerləri (işlərin xüsusiyyətləri və əmək şəraitinin oxşarlığı üzrə qrup iş yerləri) üzrə ***iş yerinin attestasiya xəritəsi*** tərtib edilir.

Əmək şəraiti üzrə iş yerlərinin attestasiya komissiyasının işinin yekunu ***protokolla*** rəsmiləşdirilməlidir. Əmək şəraiti üzrə iş yerlərinin attestasiya pasportu, bölmələrdə əmək şəraiti üzrə attestasiyanın və iş yerlərinin siy-

ahısı, attestasiya nəticələrinin toplu siyahısı, müəssisədə əmək şəraitinin yaxşılaşdırılması və sağlamlaşdırılması üzrə tədbirlər planı tərtib edilmiş sənədlər toplusuna daxildir.

Əmək şəraiti üzrə iş yerlərinin attestasiyasının nəticələri haqqında məlumat müəssisənin bütün işçilərinə çatdırılmalıdır. Həmçinin həmin sənədlər ciddi hesabat materialları olduğundan qorunmalı və 45 il müddətində saxlanılmalıdır.

Mülkiyyət formasından və təsərrüfat fəaliyyətindən asılı olmayaraq Azərbaycan Respublikasının ərazisində yerləşən ***bütün müəssisələr üçün yerinə yetirilməsi məcburi olan*** *«Əmək şəraiti zərərli olan işlərdə çalışan işçilərə pulsuz süd və digər keyfiyyətli yeyinti məhsulları verilməsi qaydası haqqında» Əsasnamə* tərtib edilmişdir. Bu Əsasnamədə Kimyəvi Maddələrin Siyahısı da öz əksini tapmışdır. Bu siyahıdan iş zonasının havasında kimyəvi maddələrin miqdarı Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin təsdiq etdiyi Sanitariya normalarında nəzərdə tutulan son həddən artıq olduqda istifadə olunur.

Əməyin Mühafizəsi bölməsinin otuz dördüncü fəsilinin 215-ci maddəsində işçilərə müəyyən edilmiş müddətlərdə və tələb olunan çeşidlərdə pulsuz xüsusi geyim, xüsusi ayaqqabı və digər fərdi mühafizə vasitələrinin verilməsi, 222-ci maddəsinin 4-cü maddəsində əmək şəraiti zərərli və təhlükəli olan istehsalatlarda, həmçinin xüsusi temperatur şəraitində aparılan və ya çirklənmə ilə bağlı işlərdə çalışan işçilərə müəyyən edilmiş normalara müvafiq pulsuz xüsusi geyim, xüsusi ayaqqabı və digər fərdi mühafizə vasitələri, yuyucu və dezinfeksiyaedici maddələrin verilməsi məsuliyyəti işəgötürənlərin üzərinə düşür. Bununla bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 29 dekabr 1999-cu il tarixli 167 nömrəli Qərarı ilə *«Işçilərin xüsusi geyim, xüsusi ayaqqabı və digər fərdi mühafizə vasitələri (FMV) ilə təmin edilmə qaydaları haqqında» Təlimat* təsdiq edilmişdir ki, bu Təlimatdakı normalara uyğun verilən fərdi mühafizə vasitələri mülkiyyət formasından və təsərrüfat fəaliyyətindən asılı olmayaraq Azərbaycan Respublikasının ərazisində yerləşən bütün müəssisələr üçün ***mütləq minimumdur.***

*«Işçilərin xüsusi geyim, xüsusi ayaqqabı və digər fərdi mühafizə vasitələri ilə təmin edilmə qaydaları haqqında» Təlimatda* bütün FMV-nin sifarişlərinin rəsmiləşdirilmə qaydaları, onların qəbul olunması və saxlanılması, verilməsi, işlənilməsi, qulluq edilməsi, həmçinin onlardan istifadə qaydaları ilə əlaqədar başqa məsələlər öz əksini tapmışdır.

Işçilərin əməyin mühafizəsi normaları və qaydaları üzrə təhsilinin, təlimatlandırılmasının, biliklərinin yoxlanmasının təşkil edilməsini və əməyin mühafizəsinin təbliğininin həyata keçirilməsini təmin etmək ***müəssisə rəhbərinin*** əsas vəzifələrindən biridir.

Bununla bağlı Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 215-219-cu maddələrinin həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində normativ-hüquqi akt kimi qeydiyyata alınaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 26 avqust 1999-cu il tarixli 19-3 nömrəli Kollegiya Qərarı ilə *«Müəssisədə işçilərin əməyinin mühafizəsi üzrə təlimi və biliklərin yoxlanılması haqqında nümunəvi Əsasnamə»* təsdiq edilmişdir.

Bütün işçilərin əməyin mühafizəsi normaları və qaydaları üzrə təhsilinin, təlimatlandırılmasının, biliklərinin yoxlanmasının təşkil edilməsi və təlimin keçirilməsi Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təsdiq etdiyi ***Nümunəvi proqram*** əsasında həyata keçirilməlidir.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində normativ - hüquqi akt kimi qeydiyyata alınaraq Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 24 dekabr 1999-cü il tarixli 25-3 nömrəli Kolleqiya Qərarı ilə *«Müəssisədə işçilərin əməyin mühafizəsi üzrə təlim və biliklərin yoxlanılması üçün sualların təxmini Siyahısı»* təsdiq edilmişdir.

Əmək Məcəlləsinin 216-cı maddəsində əməyin mühafizəsi üzrə ***işçilərin üzərinə düşən vəzifələr*** də göstərilmişdir. Bu vəzifələr aşağıdakılardır:

- *əməyin mühafizəsi üzrə müvafiq normativ aktlarda nəzərdə tutulmuş əməyin təhlükəsizliyi, gigiyenası və yanğına qarşı mühafizə tələblərini öyrənmək, mənimsəmək və onlara əməl etmək;*
- *əmək funksiyasını özünü və başqa işçiləri təhlükəyə məruz qoymayacağı tədqirdə icra etmək, şəxsi buraxılışı olmadan qurğularda, dəzgahlarda, partlayış və həyat üçün təhlükəli digər mənbələrdə iş görmək;*
- *verilmiş xüsusi geyimdə və ayaqqabıda işləmək, texnoloji prosesdə, əməyin mühafizəsi üzrə normalarda, qaydalarda və təlimatlarda nəzərdə tutulmuş fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etmək;*
- *əməyin mühafizəsi qaydalarının bütün pozuntuları haqqında, həmçinin baş vermiş qəzalar və bədbəxt hadisələr haqqında işəgötürənin nümayəndələrinə dərhal məlumat vermək;*
- *müntəzəm olaraq əməyin mühafizəsi normaları və qaydaları barədə biliklərini artırmaq;*
- *əməyin mühafizəsi məsələləri ilə əlaqədar işəgötürənin, iş yeri üzrə rəhbərinin, mütəxəssislərin tapşırıqlarına, məsləhətlərinə, tövsiyyələrinə əməl etmək.*

Onu da nəzərə almaq lazımdır ki, zərərçəkənin qəsdi nəticəsində əmələ gəlmiş zərərdən başqa, zərərçəkənin günahının dərəcəsindən asılı olmayaraq dəyən zərərin əvəzi ödənilir.

Əmək Məcəlləsinin 227-ci maddəsinə görə işçilərin ***əməyin mühafizəsi şəraiti haqqında məlumat almaq hüququ*** vardır. Belə ki, işçilərin iş yerlərində əməyin mühafizəsi şəraiti, həmin şəraitə

uyğun olaraq onlara müəyyən edilmiş normalarla verilməli olan fərdi mühafizə vasitələri, güzəştlər və təminatlar haqqında məlumat istəmək tələbi işəgötürənlər tərəfindən mütləq yerinə yetirilməlidir. Bundan başqa Əmək Məcəlləsinin 230-cu maddəsində işçilərə çox böyük hüquq və imtiyazlar verilir. Belə ki, əgər işçiyə təhlükəsiz iş şəraiti yaradılmazsa, həmçinin onun sağlamlığı və ya həyatı üçün təhlükə olarsa işçi heç bir məsuliyyət daşımadan işi icra etməkdən imtina və müəyyən olunmuş qaydada təkbaşına tətil edə bilər.

Əmək Məcəlləsinin 238-ci maddəsinə görə sağlam və təhlükəsiz əməyin mühafizəsi şəraitinin təmin edilməsinə görə işəgötürənlərin məsuliyyəti nəzərdə tutulmuşdur. Belə ki, *«işçilərin iş yerlərində sağlam və təhlükəsiz əməyin mühafizəsi şəraiti təmin edilmədikdə və kollektiv müqavilələrdə nəzərdə tutulan tədbirlər yerinə yetirlmədikdə, qanunvericilikdə nəzərdə tutulmuş hallarda və qaydada işəgötürən inzibati və cinayət məsuliyyətinə cəlb edilir».*

Azərbaycan Respublikasının Əmək Məcəlləsinə 2-ci əlavəyə, yəni *«Ilin Soyuq Vaxtında Açıq Havada və ya Isidilməyən Örtülü Binalarda, Habelə Isti Havalarda Işin Dayandırılması və Işçilərə Fasilələrin Verilməsi Şərtləri»*nə ciddi əməl olunmalıdır.

Istər işəgötürənlər, istərsə də işçilər öz üzərlərinə düşən vəzifələrin icrasını təmin etməlidirlər.

*Bununla bağlı Azərbaycan Respublikasının Cinayət Məcəlləsində müvafiq maddələr nəzərdə tutulmuşdur.*

Hal-hazırda qüvvədə olan Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 162.1-ci maddəsinə görə: *«Texniki təhlükəsizlik və ya əmək mühafizəsinin başqa qaydalarına riayət edilməsi vəzifəsi həvalə edilmiş şəxs tərəfindən bu qaydaların pozulması nəticəsində ehtiyatsızlıqdan insan sağlamlığına ağır və ya az ağır zərər vurularsa - şərti maliyyə vahidi məbləğinin yüz mislindən beş yüz mislinədək miqdarda cərimə və ya iki ilədək müddətdə islah işləri ilə və ya altı ayadək müddətdə azadlıqdan məhrum etmə ilə cəzalandırılır»,* həmçinin 162.2-ci maddəsinə görə: *«Eyni əməllər ehtiyatsızlıqdan insan ölümünə səbəb olduqda - üç ildən beş ilədək müddətdə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır».*

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 131.1-ci maddəsinə görə: *«Ehtiyatsızlıqdan sağlamlığa az ağır zərər vurma - şərti maliyyə vahidi məbləğinin üç yüz mislinədək miqdarda cərimə və ya bir ilədək müddətdə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır»,* həmçinin 131.2-ci maddəsinə görə: *«Ehtiyatsızlıqdan sağlamlığa az ağır zərər vurma - şərti maliyyə vahidi məbləğinin beş yüz mislinədək miqdarda cərimə və ya iki ilədək müddətdə islah işləri və ya iki*

*ilədək müddətdə azadlığın məhdudlaşdırılması və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır».*

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 314.1-ci maddəsinə görə: *«Səhlənkarlıq, yəni vəzifəli şəxsin işə vicdansız və ya laqeyd münasibəti nəticəsində öz xidməti vəzifəsini yerinə yetirməməsi və ya lazımi qaydada yerinə yetirməməsi vətəndaşların və ya təşkilatların hüquqlarına və qanuni mənafelərinə və ya dövlətin və ya cəmiyyətin qanunla qorunan mənafelərinə mühüm zərər vurulmasına səbəb olduqda - şərti maliyyə vahidi məbləğinin beş yüz mislindən min mislinədək miqdarda cərimə və ya iki yüz otuz saatadək ictimai işlər və ya iki ilədək müddətdə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır»,* həmçinin 314.2-ci maddəsinə görə: *«Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda - beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır».*

Müəssisə ərazisində, yaxud ondan kənarda xidməti vəzifənin, yaxud müəssisə rəhbərliyinin göstərişinin icrası zamanı baş verən hadisələr ***istehsalat zədələnməsi*** adlanır. Ağır və zərərli iş şəraitində baş verən xəstəliklər ***peşə xəstəlikləri*** adlanır.

Təhlükəsizlik texnikası, yanğın təhlükəsizliyi, və istehsalat sanitariyası təlimatlarının, qayda və normalarının pozulması iş zamanı zədələnməyə, zəhərlənməyə və peşə xəstəliklərinə səbəb olur. Müxtəlif istehsalat proseslərində əmək şəraitinin müxtəlifliyi istehsalat zədələnmələrinin ümumi səbəblərini konkret şəkildə ifadə etmək mümkün olmadığı üçün ümumi cəhətlərinə görə ***zədələnmənin və peşə xəstəliklərinin səbəblərini üç əsas qrupa ayırırlar:***

**Texniki səbəblər:**

a) texnoloji prosesin qeyri mükəmməlliyi (layihənin dəqiq olmaması, avadanlıq, qurğu və mexanizmlərin düzgün quraşdırılmaması, prosesin düzgün aparılmaması və s.);

b) avadanlıq və mexanizmlərin nasazlığı;

c) avadanlığın istismarı, yaxud təmiri zamanı işlədilən alət və tərtibatların nasazlığı;

ç) çəpərləmələrin və qoruyucu vasitələrin yoxluğu;

d) qurğu və avadanlıq yerləşdirilmiş sahənin darısqallığı və s.

**Təşkilati səbəblər:**

a) əməyin qeyri - düzgün təşkili (əmək rejiminin səmərəsizliyi, işin gərginliyi və s.);

b) iş yerinin, keçidlərin və yolların səliqəsiz saxlanması;

c) fəhlə və qulluqçuların texnoloji prosesi pis mənimsəməsi, təhlükəsizlik texnikasının, yanğın təhlükəsizliyinin və əmək gigiyenasının zəif təlim olunması;

ç) texnoloji prosesin pozulması, prosesə zəif nəzarət edilməsi;

d) işə uyğun gəlməyən alət və tərtibatın tətbiqi;

e) təhlükəsizlik texnikasının təlimatına əməl edilməməsi;

ə) təhlükəli iş üsullarının tətbiqi, əmək intizamının pozulması;

f) fərdi mühafizə vasitələrindən istifadə edilməməsi;

g) fəhlələrdən sistematik olaraq ağır işlərdə və əlavə vaxtlarda istifadə edilməsi və s.

**Sanitariya-gigiyena səbəbləri:**

a) qeyri-normal meteoroloji şərait (havanın temperaturu, nəmliyi, təzyiqi və axın sürəti, əlverişsizliyi), istilik şüalanması;

b) hava mühitinin zərərli olması (zəhərli buxar, qaz və tozlarla çirklənməsi);

c) qeyri - səmərəli işıqlanma;

ç) zərərli şüalanma (radioaktiv, rentgen, ultrabənövşəyi şüalanma, elektrik, maqnit sahəsi və s.);

d) səs-küy və titrəyiş;

e) sanitariya və gigiyena qaydalarının pozulması və s.

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 217-ci maddəsinə əsasən Azərbaycan Respublikası ərazisində istehsalatda baş verən bədbəxt hadisələrin təhqiq edilməsinin və uçota alınmasının vahid qaydasını müəyyən edən *«Istehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması Qaydaları»* hazırlanmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 28 fevral tarixli 27 saylı Qərarı ilə təsdiq edilmişdir. Bu Qaydaların təsir və tətbiq dairəsi çox geniş olub Respublikanın bütün sahələrini əhatə edir. Belə ki, *bu Qaydalar - qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının müvafiq hakimiyyət orqanlarının, fiziki və hüquqi şəxslərin təsis etdikləri mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq Respublikanın ərazisində yerləşən bütün müəssisələrdə, idarələrdə, təşkilatlarda, eləcə də müəssisə yaradılmadan işçilərlə əmək müqaviləsi bağlanmış iş yerlərində, həmçinin onun hüdudlarından kənarda fəaliyyət göstərən Azərbaycan Respublikasının səfirliklərində, konsulluqlarında, beynəlxalq sularda Azərbaycan Respublikasının bayrağı altında üzən gəmilərdə, şelf qurğularında və digər iş yerlərində tətbiq edilir və həmçinin işəgötürənin xammalından (materialından), istehsal vasitələrindən istifadə etməklə əmək funksiyasını evində yerinə yetirən işçilərə şamil edilir.*

*Bu Qaydalar Azərbaycan Respublikasının xarici dövlətlərlə, beynəlxalq təşkilatlarla bağladığı müqavilədə başqa hal nəzərdə tutulmadıqda, müvafiq xarici dövlətlərin fiziki və hüquqi şəxslərin, beynəlxalq təşkilatların, eləcə də vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təsis etdikləri və qanunvericilikdə nəzərdə tutulmuş qaydada dövlət qeydiyyatına alınıb, fəaliyyət göstərən iş yerlərində heç bir şərt qayulmadan tətbiq edilir.*

*Bu Qaydalar dövlət qulluqçularına, habelə prokurorluq, polis və digər hüquq-mühafizə orqanlarının qulluqçularına onların hüquqi statusunu tənzimləyən normativ hüquqi aktlarla müəyyən olunmuş xüsusiyyətlər nəzərə alınmaqla (əgər göstərilən aktlarla həmin qulluqçuların əmək, sosial və iqtisadi hüqüqları bütünlüklə əhatə olunmayıbsa), is-*

*tehsalat təcrübəsi keçən hərbi qulluqçulara, məhkəmə hökmlərinin icrası yerlərində işləyən məhkumlara, təbii fəlakətin nəticələrinin aradan qaldırılmasına, habelə hərbi və fövqəladə vəziyyət rejimində işlərin görülməsinə cəlb edilən şəxslərə şamil edilir.*

*Bu Qaydalar hərbi hissədə qulluq edən hərbi qulluqçulara, məhkəmə hakimlərinə, Azərbaycan Respublikası Milli Məclisinin deputatlarına, bələdiyyələrə seçilmiş şəxslərə, xarici ölkənin hüquqi şəxsi ilə həmin ölkədə əmək müqaviləsi bağlayıb əmək funksiyasını Azərbaycan Respublikasında fəaliyyət göstərən müəssisədə yerinə yetirən əcnəbilərə, eləcə də podrat, tapşırıq, komisyon, müəlliflik və başqa mülki-hüquqi müqavilələr üzrə işləri yerinə yetirən şəxslərə şamil olunmur.*

*Bədbəxt hadisələr* ***istehsalatla əlaqəli və əlaqəsiz*** *olur.*

***Istehsalatda baş verən bədbəxt hadisələrin tədqiqi*** aşağıdakı hallarda aparılır:

- *əmək vəzifələrini yerinə yetirərkən (o cümlədən ezamiyyət zamanı), həmçinin müdriyyətin tapşırığı olmadan belə müəssisənin mənafeyi üçün hər hansı fəaliyyət göstərərkən;*
- *müəssisəyə məxsus və müəssisənin müqaviləsi (sifarişi) əsasında kənar təşkilatlardan verilmiş nəqliyyatlarda işə gedərkən yaxud işdən qayıdarkən;*
- *müəssisənin ərazisində, yaxud başqa iş yerində iş vaxtı müəyyən edilmiş fasilələr də daxil olmaqla, işçi işə başlamazdan əvvəlki və ya işi qurtarıb müəssisədən çıxan vaxt ərzində;*
- *keçirildiyi yerdən asılı olmayaraq, müəssisə tərəfindən iməclik tədbirləri keçirildiyi müddətdə;*
- *işçi qanunvericiliklə nəzərdə tutulmuş hallarda və qaydada dövlət və ictimai vəzifələrin yerinə yetirilməsinə cəlb edildiyi müddətdə;*
- *istehsal avadanlıqları və obyektlərində qəza zamanı;*
- *növbə istirahətində olan işçilər (bələdçi, refrijerator briqadasının işçisi, növbədə olan sürücü, dəniz, çay və hava nəqliyyatlarının ekipaj üzvləri, növbə ekspedisiya üsulu ilə işləyənlər və başqaları) növbə (vaxta)qəsəbəsinin ərazisində olduqları vaxt;*
- *işçilər xidmət obyektlərinin arasında hərəkət etməklə (iş vaxtı ictimai nəqliyyatda yaxud piyada gedərkən, həmçinin işəgötürənin (onun vəzifəli şəxslərinin) tapşırığını yerinə yetirərkən)fəaliyyət göstərdikləri müddətdə;*
- *işəgötürənin yazılı sərəncamına əsasən, əmək vəzifələrini şəxsi minik maşınında yerinə yetirdiyi vaxt;*
- *əmək vəzifələrini yerinə yetirərkən işçiyə başqa şəxs tərəfindən bədən xəsarətləri yetirildikdə, yaxud o öldürüldükdə;*
- *əmək vəzifələrini yerinə yetirərkən itkin düşmələr, zədələnmələr, peşə xəstəlikləri və zəhərlənmələr, istivurmalar, yanmalar, donmalar, suda boğulmalar, ildırım vurmalar, heyvan və həşaratlarla təmas nəticəsində dəymiş zədələnmələr, həmçinin təbii fəlakətlər (zəlzələlər, sürüşmələr, daşqınlar, qasırğalar və s.)zamanı.*

## İşçinin əməyin mühafizəsi hüququnun həyata keçirilməsi üçün təminatlar

İstehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçiyə və ya bu səbəbdən ***həlak olmuş işçilərin ailə üzvlərinə*** təqsirkar müəssisə tərəfindən işçiyə dəymiş ziyana görə ***maddi ödəniş*** olmalıdır.

Dəymiş zərərin əvəzinin zərərçəkənə və yaxud zərərə görə ödənc almaq hüqüquna malik olan şəxslərə ödənilməsi üçün müvafiq şərtlərdən biri də işçinin həmin təşkilatla əmək münasibətlərinin olmasıdır. Belə ki, işçilərin əməyin mühafizəsi hüquqlarının təmin edilməsi üçün işçi ilə bağlanan əmək müqaviləsi Əmək Məcəlləsinin III bölməsində müəyyən edilmiş ***əməyin mühafizəsi normalarının tələblərinə uyğun olmalıdır*** və işəgötürən tərəfindən işçinin sağlam və təhlükəsiz əmək şəraitinə təminat verilməsi barədə öhdəliyi göstərilməlidir *(ƏM, maddə 224).*

Lakin hal-hazırda ölkəmizdə əmək müqavilələri bağlanmadan fəaliyyət göstərən müəssisələr fəaliyyət göstərirlər ki, bunun da bir çox obyektiv və subyektiv səbəbləri vardır. Işəgötürənlə müvafiq qaydada əmək müqaviləsi bağlanılmadan fəaliyyət göstərərkən müəssisənin zərərçəkən qarşısında maddi məsuliyyət məsələsi Azərbaycan Respublikasının ***mülki qanunvericiliyinə*** müvafiq həll edilir.

Əmək Məcəlləsinin 211-ci maddəsində qeyd olunan işçilərin ***peşə xəstəliyinə tutulması ehtimalı*** yüksək olan istehsalatlar və iş yerlərinin siyahısı ilə aidiyyatı üzrə işə qəbul edilən işçi mütləq işəgötürən tərəfindən xəbərdar edilməlidir. Işə qəbul edilən işçi ilə əmək müqaviləsinin müddəti həmin işdə peşə xəstəliyinə tutulmağın ehtimal olunduğu müddəti aşmamalıdır. Belə ki, onunla müddətli əmək müqaviləsi bağlanmalı, müddət bitdikdən sonra işçi başqa işə keçirilməlidir. Bu zaman işçinin əvvəlki orta əmək haqqı saxlanılmalıdır.

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 225-ci maddəsində nəzərdə tutulmuş sosial sığorta işçiləri istehsalatda bədbəxt hadisələrdən və peşə xəstəliklərindən sığortalanmaq üçün istifadə olunan ***icbari sosial sığorta*** formasıdır. Belə ki, işəgötürən həyat üçün yüksək təhlükə mənbəyi olan, habelə maşın, mexanizm, qurğu, elektrik avadanlıqları, partlayış və yanğın təhlükəsi yüksək olan iş yerlərində çalışan işçiləri gələcəkdə baş vermə ehtimalı yüksək olan bədbəxt hadisədən sığortalamağı öz öhdəsinə götürməlidir. Ona görə də həyat üçün risk mövcud olan təhlükəli iş yerlərində çalışan işçilər əmək müqaviləsi (kontrakt) bağlayarkən işəgötürəndən icbari sosial sığorta olunmalarını tələb etmələri onların sosial mənafelərinə tam uyğundur və qanuna zidd deyildir.

Bundan əlavə işəgötürənlə əmək kollektivi arasında bağlanan kollektiv müqavilələrdə icbari sosial sığortaya cəlb olunan işçilərin siyahısı və sığorta haqqı müəyyən oluna bilər. Sonra isə

tərəflərin iradəsindən asılı olaraq istənilən sığorta fəaliyyəti həyata keçirən sığorta təşkilatı ilə sığorta iştirakçılarını qane edən şərtlər daxilində sığorta müqaviləsi bağlanıla bilər.

Yuxarıda qeyd olunan hallardan əlavə Əmək Məcəlləsinin 211-ci maddəsində nəzərdə tutulan və həyat üçün yüksək təhlükə mənbəyi olan istehsal və qeyri-istehsal sahələri üzrə də çalışan ***işçilərin icbari sosial sığortası*** işəgötürən tərəfindən mütləq həyata keçirilməlidir. Eyni zamanda bu işçilərlə əmək müqaviləsi bağlanarkən, işəgötürənin hesabına onlar hökmən ilkin tibbi müayinədən, sonralar isə vaxtaşırı icbari tibbi müayinədən keçirilməlidirlər (Əmək Məcəlləsi - maddə 226). Icbari tibbi müayinədən keçməkdən boyun qaçıran, və ya həkim komissiyalarının tövsiyyələri yerinə yetirməyən işçilər barədə işəgötürən Əmək Məcəlləsinin 62-ci maddəsinə əsaslanaraq işdən kənar edilməyə qədər cəza tədbiri görə bilər.

Qeyd olunan iş yerlərinin, habelə həmin iş yerlərində çalışan işçilərin siyahılarının müəyyən olunması və açılışı Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən qəbul olunmuş müvafiq qərara uyğun olaraq təsdiq edilir. Ona görə də «Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimlənmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən qərara alınmış və müvafiq qaydada təsdiq edilmiş siyahıların adları aşağıda verilir.

## Əməyin mühafizəsi normalarına və qaydalarına əməl olunmasına nəzarət və işəgötürənlərin məsuliyyəti

Azərbaycan Respublikasının Konstitusiyası ilə nəzərdə tutulmuş əmək hüquqlarının müdafiəsini təmin etmək və əmək qanunvericiliyinə əməl olunmasına ***dövlət nəzarətini*** həyata keçirmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin *«Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində Dövlət Əmək Müfəttişliyinin yaradılması haqqında Fərmanına (27 yanvar 1997-ci il №544)»* əsasən belə bir orqan yaradılmış və *Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (31 aprel 1997-ci il)ilə Əsasnaməsi* təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 235-ci maddəsində qeyd olunan əməyin mühafizəsi normalarının, qaydalarının, habelə əməyin mühafizəsinə dair normativ - hüquqi aktların tələblərinin yerinə yetirilməsinə nəzarət də ***Dövlət Əmək Müfəttişliyi*** tərəfindən həyata keçirilir. Bu orqan tərəfindən (onun vəzifəli şəxsləri)

qəbul edilən qərarlar hökmən icra edilməlidir. Eyni zamanda qarşı tərəf bu qərarlardan qanunla müəyyən edilmiş qaydada məhkəmə orqanlarına şikayət edə bilər.

Əməyin mühafizəsi normalarının, qaydalarının, habelə əməyin mühafizəsinə dair normativ hüquqi aktların tələblərinin yerinə yetirilməsinə, eyni zamanda əmək qanunvericiliyinə əməl edilməsinə dövlət orqanları ilə yanaşı olaraq ***ictimai nəzarəti*** əmək kollektivlərinin müvəkkil etdikləri şəxslər və həmkarlar ittifaqları təşkilatlarının nümayəndələri həyata keçirirlər (Əmək Məcəlləsi 236-cı maddə). *Bu şəxslərin iş yerlərində əməyin mühafizəsi vəziyyətini maneəsiz yoxlamaq, aşkara çıxarılmış pozuntuların aradan qaldırılmasını vəzifəli şəxslərdən tələb etmək, habelə təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsi barədə işəgötürən qarşısında məsələ qaldırmaq hüququ vardır və işəgötürən ona hər həftə orta əmək haqqını ödəməklə iş vaxtında azı iki saat vaxt ayırmalıdır.*

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 237-ci maddəsində göstərilir ki, əməyin mühafizəsi üzrə normativ aktların hazırlanmasında və müəyyən edilmiş qaydada həmkarlar ittifaqları komitələri ilə razılaşdırılmamış aktların qüvvəyə minməsinə qarşı müvafiq dövlət orqanları vasitəsilə etiraz edə bilərlər. Bir sıra digər vəzifələrlə yanaşı olaraq həmkarlar ittifaqlarının nümayəndələri istehsal obyektlərinin və vasitələrinin sınağı və istismara qəbulu üzrə dövlət komissiyalarının işində, istehsalatda bədbəxt hadisələrin təhqiqində və digər məsuliyyət tələb edən tədbirlərin həyata keçirilməsində iştirak edirlər. Qeyd etdiyimiz kimi, istehsalatda baş verən hadisələrin nəticələri zamanı rast gəlinən hər 3 halda yaradılan ***Təhqiqat Komissiyasının*** tərkibinə ***həmkarlar ittifaqlarının nümayəndələri*** də komissiya üzvü kimi daxil edilirlər. Nəzərə alsaq ki, xüsusi təhqiqat aktı tərtib edilən zaman komissiyanın hər bir üzvü öz rəyini yazılı şəkildə təqdim edir və akt komissiyanın bütün üzvləri tərəfindən imzalanır, onda zərərçəkənin taleyinin həmkarlar ittifaqlarının nümayəndələrinin təşəbbüskarlığından, prinsipiallığından, iqtisadi və hüquqi savadından, eyni zamanda digər müsbət keyfiyyətlərə malik olmalarından asılı olması aydın görünər.

Bundan başqa, vəzifəli şəxslər tərəfindən əməyin mühafizəsi tələbləri pozulduqda, istehsalatda baş vermiş bədbəxt hadisələri gizlətdikdə həmkarlar ittifaqları təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsi üçün dövlət orqanları qarşısında məsələ qaldıra bilər. Eyni zamanda, Əmək Məcəlləsinin 237-ci maddəsinnə görə: *«İşçilərin sağlamlığı və həyatı üçün bilavasitə təhlükə yarandıqda həmkarlar ittifaqlarının hüququ var ki, əməyin mühafizəsi üzrə konstruksiya çatışmazlıqları olan maşınların, mexanizmlərin və digər məhsul növlərinin istehsalını, in-*

*sanların sağlamlığına zərərli təsir göstərən materialların, texniki və texnoloji vasitələrin tətbiqini, habelə əməyin mühafizəsi haqqında qanunvericiliyə zidd olan işləri və işəgötürən tərəfindən qəbul edilmiş qərarların fəaliyyətinin dayandırılması barədə əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqan qarşısında məsələ qaldırsın».*

Yuxarıda deyilənləri nəzərə alaraq, həmkarlar ittifaqlarının və əmək kollektivlərinin müvəkkil etdikləri şəxslərin seçkiləri zamanı işçilər tərəfindən daha ciddi və daha aktiv şəkildə iştirak dilərək öz hüquqlarının müdafiəsini bu işi bacaranlara həvalə etmələrinin işçilərə yalnız müsbət təsiri olacağını yaddan çıxarmamalıdırlar.

İctimai nəzarətin həyata keçirilməsinin normativ hüquqi sənədləri Azərbaycan Həmkarlar Ittifaqları Konfederasiyasının (AHIK) Icraiyyə Komitəsinin təsdiq etdiyi ***Əsasnamələrdən*** ibarətdir.

AHIK-in İcraiyyə Komitəsinin 23 may 2001-ci il tarixli (Protokol №23 b. 8. ə) qərarına 3 №-li əlavə ilə *«Əmək Qanunvericiliyinə Riayət Olunması Üzrə Həmkarlar Ittifaqları Tərəfindən Ictimai Nəzarətin Təşkili və Həyata Keçirilməsi Haqqında» Əsasnamə* təsdiq olunmuşdur.

AHİK-in Icraiyyə Komitəsinin 23 may 2001-ci il tarixli (Protokol №23 b. 8. ə) qərarına 4 №-li əlavə ilə *«Əmək Qanunvericiliyinə Riayət Olunması Üzrə Həmkarlar Ittifaqı Komitəsinin Ictimai Nəzarət Komissiyası Haqqında» Əsasnamə* təsdiq olunmuşdur.

AHIK-in Icraiyyə Komitəsinin 23 may 2001-ci il tarixli (Protokol №23 b. 8. ə) qərarına 6 №-li əlavə ilə *«Həmkarlar Ittifaqı Komitəsinin Əməyin Mühafizəsi Komissiyası Haqqında» Əsasnamə* təsdiq olunmuşdur.

AHIK-in İcraiyyə Komitəsinin 23 may 2001-ci il tarixli (Protokol №23 b. 8. ə) qərarına 7 №-li əlavə ilə *«Həmkarlar İttifaqı Komitəsinin Əməyin Üzrə İctimai Müvəkkil Haqqında» Əsasnamə* təsdiq olunmuşdur.

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 239-cu maddəsinin 3-cü hissəsinə uyğun olaraq, «*Istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçiyə və ya bu səbəbdən həlak olmuş işçilərin ailə üzvlərinə ödənclərin verilməsi Qaydalarının, şərtlərinin və məbləğinin təsdiq edilməsi haqqında»* Azərbaycan Respublikası Nazirlər Kabinetinin 9 yanvar 2003-cü il tarixli 3№-li Qərarı qüvvəyə minmişdir.

Əmək vəzifələrini yerinə yetirərkən xəsarət almış, peşə xəstəliyinə tutulmuş işçilərə və yaxud bu səbəblərdən həlak olmuş işçilərin ailələrinə müəssisələr, idarələr, təşkilatlar tərəfindən zərərin ödənilməsi haqqında yuxarıda adları çəkilən sənədlərdə ətraflı və geniş məlumat verilmişdir. Bununla yanaşı olaraq, oxucuları maraqlandıracaq bəzi məsələlər barədə məlumatların verilməsinə çalışacağıq. Bildiyimiz kimi, istehsalat

qəzası və yaxud peşə xəstəliyi nəticəsində ***sağlamlığı pozulmuş işçiyə*** və ya bu səbəbdən ***həlak olmuş işçilərin ailə üzvlərinə*** təqsirkar müəssisə tərəfindən işçiyə dəymiş ziyana görə maddi ödəniş olmalıdır.

Ümumiyyətlə, yaddan çıxarmaq lazımdır ki, dəymiş zərərin əvəzinin zərərçəkənə və yaxud zərərə görə ödənc almaq hüququna malik olan şəxslərə ödənilməsi üçün müvafiq şərtlərdən biri də işçinin həmin təşkilatla əmək münasibətlərinin olmasıdır. Lakin hal-hazırda ölkəmizdə bu sahədə problemlər mövcuddur ki, bunun da bir çox obyektiv və subyektiv səbəbləri vardır. Lakin bu başqa söhbətin mövzusu olduğu üçün bu məsələyə geniş yer verməsək də qeyd etməliyik ki, işəgötürənlə müvafiq qaydada əmək müqaviləsi bağlanılmadan fəaliyyət göstərərkən müəssisənin zərərçəkən qarşısında ***maddi məsuliyyət məsələsi*** Azərbaycan Respublikasının mülki qanunvericiliyinə müvafiq həll edilir.

Qaydalara görə: *«Zərər müəssisənin gəliri hesabına, büdcədən maliyyələşən müəssisələrdə isə büdcə vəsaiti, yaxud büdcədənkənar vəsaitlər hesabına ödənilməlidir».* Qeyd olunan ödənişin verilməsi üçün əsas olan başlıca sənəd təhqiqat aktı və ona əlavə olunan sənədlərdir ki, bu barədə də əvvəllərdə məlumat verilmişdir. Əmək xəsarəti almış (əmək qabiliyyəti zəifləmiş və ya həlak olmuş) şəxsə qanunvericilikdə nəzərdə tutulmuş qaydada ***aylıq ödənclər, habelə sağlamlığının pozulması ilə bağlı əlavə çəkdiyi xərclər verilir.***

Belə ki:

- *əgər işçi əmək qabiliyyətini itirmişdirsə əmək qabiliyyətini itirməmişdən əvvəlki gün malik olduğu orta aylıq əmək haqqının baş vermiş bədbəxt hadisə nəticəsində məhrum olduğu peşə əmək qabiliyyətinin faizi miqdarında müəyyənləşdirilir;*
- *əgər işçi həlak olmuşdursa əmək qabiliyyətini itirməmişdən əvvəl malik olduğu orta aylıq əmək haqqının 100% miqdarında ödəniş müəyyən edilir və Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1121-ci maddəsinə əsasən müəyyən edilmiş həmin ödənişi almaq hüququ olan şəxslərə çatdırılır.*

Aylıq ödəncin məbləği müəyyənləşdirilərkən istifadə edilən ***orta aylıq əmək haqqı hesablanarkən*** işçi həlak olmamışdan və ya əmək qabiliyyətini itirməmişdən əvvəlki 12 təqvim ayı ərzində malik olduğu əmək haqlarının cəminin 12-yə nisbəti götürülür.

İstehsalatda əmək xəsarəti ilə əlaqədar ödənilən zərərə görə aylıq ödəncin miqdarının hesablanmasında götürülən orta əmək haqqı müəyyən edilərkən nəzərə alınan və alınmayan ödənclərin siyahısı *«Məzuniyyət vaxtı üçün orta əmək haqqının hesablanması zamanı nəzərə alınan və alınmayan ödənclərin müəyyən edilməsi və məzuniyyət vaxtı üçün orta əmək haqqının əmsallaşdırılması qaydasının təsdiq edilməsi barədə»* Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 25 avqust tarixli,

37 saylı Qərarının 1 saylı əlavəsinə uyğun olaraq müəyyən edilir .

Qaydalara əsasən, istehsalatda əmək xəsarəti ilə əlaqədar ödənilən ***zərərə görə aylıq ödənclərin miqdarı*** qanunvericiliklə müəyyən olunmuş qaydada təqsirkar müəssisədə işçilərin minimum əmək haqqı və yaxud tarif (vəzifə) maaşlarının kütləvi artımı zamanı qanunvericiliklə müəyyən olunmuş qaydada təshih edilir və ödənilir. Bu halda aylıq ödənclərinin miqdarının hesablanmasında götürülən orta əmək haqqı zərərçəkənin həmin təqsırkar müəssisədə işlədiyi peşə (vəzifə) üzrə tarif maaşının kütləvi artımından sonra iki aylıq faktiki orta əmək haqqı hesabından müəyyən edilir və göstərilən artım günündən başlayaraq ödənilir. Həmin orta aylıq əmək haqqının hesablanmasında nəzərə alınan və nəzərə alınmayan ödənclərin siyahısı *«Orta əmək haqqı hesablanarkən nəzərə alınan və alınmayan ödənclərin Siyahısı»* Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 iyul tarixli, 126 saylı Qərarı ilə təsdiq edilmişdir.

Qanunvericiliyə əsasən, *«18 yaşına çatmamış zərərçəkənin aylıq ödəncinin miqdarı minimum əmək haqqının beş mislindən az ola bilməz».*

Qaydalara görə, əmək xəsarəti ilə əlaqədar təqsirkar müəssisə zərərçəkənə Həkim Əmək Ekspert Komissiyası tərəfindən müəyyən edilən əlavə xərcləri (ərzağın, dərmanların əldə edilməsi, protezləmə, onlara xidmət etmə, zərərçəkənin xidmət olunduğu yerə və geriyə gediş xərci, bəzi hallarda onu müşayət edən şəxs də nəzərə alınmaqla sanatoriya - kurort müalicəsi, xüsusi nəqliyyat vasitəsinin əldə olunması və onların əsaslı təmiri, yanacağın əldə edilməsi və i.a.) ödənməlidir.

Zərər dəyməsində təqsirkar olan müəssisənin yenidən təşkil olunduğu hallarda zərərçəkənə həmin müəssisənin hüquqi varisi tərəfindən zərərin əvəzi ödənilməlidir. Eyni zamanda zərər dəyməsində təqsirkar olan müəssisə ləğv edildiyi halda da zərərçəkənə qanunvericiliklə müəyyənləşdirilmiş qaydada zərərin əvəzi ödənilir. Deyilənlərlə bağlı tərəflər (zərərçəkən və təqsirkar müəssisə) arasında yaranan mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həll edilməlidir.

*Əmək Məcəlləsinin 239-cu maddəsi ilə müəyyən edilmiş hallarda ödənclərin verilməsi qanunvericiliklə müəyyən edilmiş qaydada sığorta orqanlarında işəgötürən tərəfindən icbari şəxsi sığorta olunmuş işçilərə şamil olunmur. Əməyin mühafizəsi qaydalarının pozulması, habelə əmək şəraitinə görə zərərçəkmiş həmin işçilərə və onların ailə üzvlərinə sığorta haqqı müvafiq sığorta müqaviləsində nəzərdə tutulan qaydada və məbləğdə ödənilir.*

Qanunvericilikdə istehsalatda baş verən bədbəxt hadisə və ya peşə xəstəliyi nəticəsində işçinin sağlamlığına dəyən zərərin ödənilməsi üçün qanunvericilik təminatı-

nın olmasına baxmayaraq praktikada minlərlə insan bu və ya digər səbəblərə görə zərərin əvəzini ala bilmirlər. Bunun əsas səbəbləri içərisində müəssisənin ləğv edilməsi və ya istehsal prosesinin dayanması, müəssisənin ödəniş qabiliyyətinin olmaması kimi səbəblər üstünlük təşkil edir.

Yaranmış problemi qismən aradan qaldırmaq məqsədi ilə Azərbaycan Respublikası Prezidenti 2008-ci il 4 avqust tarixli Fərmanı ilə "**Özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə aylıq ödənc üzrə borclarının tənzimlənməsi Qaydalarını"** təsdiq etmişdir.

Bununla bağlı aşağıda daha geniş məlumat veriləcəkdir.

## Texniki təhlükəsizlik haqqında Azərbaycan Respublikasının qanunu

Təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının hüquqi, iqtisadi və sosial əsaslarını müəyyənləşdirmək, həmin obyektləri istismar edən hüquqi və fiziki şəxslərin bu obyektlərdə baş verə biləcək qəzaların qarşısını almağa və baş vermiş qəzaların nəticələrini aradan qaldırmağa yönəldən fəaliyyətləri tənzimləmək məqsədi ilə **Texniki təhlükəsizlik haqqında** Qanun qəbul edilmişdir. Qanun mahiyyət etibari ilə təhlükə potensialı çox olan obyektlərin anlayışını verir və qanuna əlavə olunan sənəddə bu obyektlərin siyahısı verilir. Bu qanun həmiçinin təhlükə potensiallı obyektlərint layihələşdirilməsinə, tikintisinə və istismara qəbul edilməsinə texniki təhlükəsizlik tələblərini müəyyən edir. Belə obyektlərin istismarına dair texniki təhlükəsizlik tələblərindən biri də işçi heyətinə dairdir. Tələblərdə göstərilir ki, belə obyektləri istismar edən hüquqi və ya fiziki şəxslər "**təhlükə potensiallı obyektlərdə işçi heyətlərini kompleklәşdirərkən onların texniki təhlükəsizlik, və ixtisaslaşma tələblərinə, habelə qanunla müəyyənləşdirilmiş digər tələblərə uyğunluğunu və tibbi cəhətdən yararlığını təmin etməlidir**". Lakin monitolrinq çərçivəsində belə obyektlərdə apardığımız müşahidələr və işçilərlə aparılan müsahibələr onu göstərir ki, qanunun bu müddəasında göstərilən tələblərə yan əməl edilmir, yaxud ciddi surətdə əməl edilmir. Nəticədə bu tipli obyektlərdə qəza təhlükəsi və işçilərin naşılı ucbatından digər təhlükə doğuran hadisələrin baş verməsi həmişə labüd olur. Qanunun tələbinə görə təhlükə potensiallı obyektlərdə çalışanlar "**ildə bir dəfədən az olmayaraq az olmamaq şərti ilə tibbi müayinədən və attestasiyadan keçməlidir**". Təbii ki, qanunun bu tələbinin yerinə yetirilməsinə görə məsuliyyət işəgötürənin üzərinə düşür. Məhz işəgötürən işçilərin attestasi-

yadan vaxtlı vaxtında keçməsinə görə müvafiq tədbirlər görməlidir. İnzibati Xətalar Məcəlləsinin 53.2. maddəsinə görə iş yerlərinin və işçilərin attestasiyasını keçirməməyə görə işəgötürənlər 700 manatdan, 1200 manatadək cərimə oluna bilərlər. Bununla belə monitorinq zamanı həm təhlükə potensiallı obyektlərin bir çoxunda, həm də bu kateqoriyaya aid olmayan müəssisələrdə iş yerlərinin və işçilərin attestasiyası nəzərdə tutulmuş müddətlərdə və nəzərdə tutulmuş qaydalarda həyata keçirilmir. İşçilərin vaxtaşırı tibbi müəayinədən keçirilməsində də ciddi qüsurlar vardır. Monitorinq nəticəsində bu qüsurlar əsasən aşağıdakılardan ibarət olmuşdur.

- *İşəgötürənlər işçiləri (bu əsasən özəl sektora aiddi) vaxtlı vaxtında tibbi müayinəyə göndərmir. Hətta bir çox bu tipli müəssisələrə xidmət göstərən konkret tibb müəssisəsi yoxdur;*
- *Tibb müəssisələrində işçilərin tibbi müayinəsinə səthi yanaşılır və bəzi hallarda işçilərlə razılaşma əsasında onların tibbi qüsurları müvafiq sənəddə göstərilmir.*

Qanunda həmçinin təhlükə potensiallı obyektlərdə texniki təhlükəsizlik tələblərinə riayət olunmasına daxili nəzarət, qəza səbəblərinin texniki təhqiqatı, texniki təhlükəsizlik ekspertizasına dair müddəalar da əks olunmuşdur. Bütövlükdə qanunun beynəlxalq standartlara uyğun olmasına baxmayaraq, onun tətbiqi praktikasında ciddi qüsurlar vardır.

**İstehsalatda baş verən bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində işçilərin sağlamlığına vurulan zərərin və bu səbəblərdən həlak olanların ailə üzvlərinə ödənclərin verilməsi ilə bağlı olan normativ sənədlər**

Əmək Məcəlləsinin 239-cu maddəsinə görə "**İstehsalatda baş vermiş bədbəxt hadisədə və ya peşə xəstəliyində təqsirli (tam və ya qismən) olan işəgötürən həm işçiyə xəsarət yetirilməsi və ya sağlamlığının başqa şəkildə korlanması nəticəsində dəymiş zərərin, həm müalicə olunması üçün çəkdiyi, həm də ona pensiya, müavinətlər verilməsi ilə əlaqədar sosial sığorta orqanları tərəfindən çəkilən xərclərin eləcə də Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş digər əlavə xərclərin əvəzini bütövlükdə ödəməlidir**"

Məcəllənin 239-cu maddəsinə görə həmçinin **"İşəgötürənin təqsiri üzündən baş vermiş istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçilərə, habelə bu səbəbdən həlak olmuş işçilərin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə qanunvericiliklə müəyyən edilmiş qaydada dəymiş zərərə görə müvafiq ödənclər ödənilməlidir"**

Məcəllənin bu maddəsinin şərtlərini təmin etmək məqsədi ilə Nazirlər Kabineti tərəfindən İstehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçiyə və ya bu səbəbdən həlak olmuş işçinin ailə üzvlərinə ödənişlərin verilməsi qay-

daları, şərtləri və məbləği müəyyənləşdirilir. Əvvəlki praktikada belə kateqoriyaya aid olanlara həm birdəfəlik, həm də aylıq ödənişlər müəyyən olunurdu.

Nazirlər Kabinetinin 2003-cü il 9 yanvar tarixli 3 nömrəli qərarı ilə istehsalatda baş verən bədbəxt hadisə və ya peşə xəstəliyi nəticəsində sağlamlığını itirən şəxslərə və ya bu səbəblərdən həlak olan şəxslərin vərəsələrinə birdəfəlik konpensasiyaların və aylıq konpensasiyaların verilməsi praktikasına son qoyuldu. Əslində yuxarıda göstərilən səbəblərdən sağlamlığına zərər dəymiş və bu səbəbdən peşə-əmək qabiliyyəti qismən və ya tam itirmiş şəxsərə, habelə həmin səbəblərdən həlak olmuş şəxslərin vərəsələrinə dəymiş zərəri bir dəfəlik kompensasiya etmək daha məqsədəuyğundur, nəinki onun aylıq konpensasiya şəkilində ödənilməsi. Belə ki, aylıq kompensasiyaların ödənilməsinin davamlı şəkildə olması heç də həmişə mümkün olmur. Burada risklər daha böyükdür. Bədbəxt hadisə və ya peşə xəstəliyi nəticəsində işçinin sağlamlığına zərər vuran müəssisə ləğv olunduqda, müəssisənin mülkiyyətçisi dəyişdikdə və ya müəssisə ilə bağlı hər hansı hadisə (məsələn müflis olma) baş verdikdə sağlamlığına zərər dəymiş işçiyə və ya bu səbələrdən həlak olmuş işçinin vərəsələrinə kompensasiyaların ödənişi mümkün olmur, nəticədə insanların təminatsız qalır. Hazırda ölkədə minlərlə insan bu səbələrdən aylıq kopensasiyalarını ya tam ala bilmir, yaxud bu kopensasiyaların ödənişi aylarla, bəzən isə illərlə həyata keçirilmir. **Təsədüfi deyildir ki, mövcud problemin miqyasını nəzərə alaraq ölkə Prezidenti** 2008-ci il 4 avqust tarixli Fərmanı ilə "**Özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə aylıq ödənc üzrə borclarının tənzimlənməsi Qaydaları"**nı **təsdiq etmişdir. Həmin qaydalara görə istehsalatda bədbəxt hadisə və ya peşə xəstəliyi nəticəsində peşə -əmək qabiliyyətini tam və ya qismən itirmiş şəxslərə, və ya bu səbəblərdən həlak olmuş şəxslərin vərəsələrinə dövlət büdcəsi hesabına müavinətlər təyin olunmuşdur. Lakin bu** Qaydalar yalnız Fərmanda göstərilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə aylıq ödənc üzrə borclarına şamil olunur. Bu kateqoriyaya aid olan aşağıdakı müəssisələrə aiddir:

- Qaydalar qüvvəyə minənədək özəlləşdirilməsi barədə qərar qəbul edilmiş, lakin özəlləşdirilməsi başa çatmamış dövlət müəssisələri;
- 2003-cü il 27 sentyabr tarixindən bu Qaydalar qüvvəyə minənədək özəlləşdirilməsi başa çatmış dövlət müəssisələri;

• Qaydalar qüvvəyə minənədək idarəetməyə verilən dövlət müəssisələri.

Bu Fərmanın imzamlanması və Qaydaların təstiq olunması olduqca mütərəqqi bir addım olsa da problemi yalnız qismən həll etmiş olur. Belə ki, bu aylıq müavinətlər həmin şəxslərin almalı olduqları real məbləğlərə uyğun deyil, hamı üçün bərabər şəuildə müəyyən olunur.

Fərmana görə bu aylıq ödənclər:

• peşə əmək qabiliyyəti 29 faizədək itirildikdə - 30 manat;

• peşə əmək qabiliyyəti 30 faizdən 59 faizədək itirildikdə - 40 manat;

• peşə əmək qabiliyyəti 60 faizdən 79 faizədək itirildikdə - 50 manat;

• peşə əmək qabiliyyəti 80 faiz və daha çox itirildikdə - 60 manat; həlak olduqda - 70 manat müəyyən olunmuşdur.

Bütövlükdə problemin tam həlli üçün aylıq kompensasiya sistemi birdəfəlik kompensasiya sistemi ilə əvəzlənməlidir. Hazırda dünyanın bir çox ölkələrində bu üsuldan istifadə olunur. Belə olan halda istehsalat zədələnməsi və ya peşə xəstəliyi nəticəsində peşə -əmək qabiliyyətini tam və ya qismən itirmiş şəxslər və ya bu səbəblərdən həlak olmuş şəxslərin vərəsələri ədalətli kompensasiya almaq hüquqlarını təmin etmiş olacaqdır. Lakin Aylıq kompensasiyaların birdəfəlik kompensasiyalarla əvəzlənməsi də müəyyən problemlər ortaya çıxarır. Bu problemlər ilk növbədə aşağıdakılar ola bilər:

• Bir çox müəssisələr, xüsusən də orta və kiçik müəssisələr birdən-birə çox miqdarda müavinət (kompensasiya) ödəmək qabiliyyətində olmurlar. Bu hal xüsusən istehsalatda baş verən bədbəxt hadisə nəticəsində çoxsaylı işçinin bir vaxta xəsarət alaraq peşə əmək qabiliyyətini tam və ya qismən itirməsi və ya bu səbəblərdən həlak olması halında qeyrimümkün olur. Nəzərə alsaq ki, işəgötürən işçinin sağlamlığına zərər vurduqda onun digər xərclərini, o cümlədən müalicə və ya dəfn xərclərini də ödəməlidir, onda bu vəsaitin çox böyük olduğu aşkar görünür və belə iri xərcləri yalnız böyük maliyyə imkanlarına malik olan müəssisə və ya şirkətlər ödəmək qabiliyyətində olurlar;

• Aylıq kompensasiyaların ödənilməsi zamanı əmək haqları artdıqca ödənilən kompensasiyaların da miqdarı arta bilir. Lakin birdəfəlik kompensasiyaların ödənilməsi zamanı sonradan sürətli infilyasiya prosesi getdikdə və alınmış vəsait dəyərini itirdikdə əlavə heç bir vəsait ödənilmir. Bu isə kompensasiya alan şəxslərin risklərini artırır;

• Birdəfəlik ödənilən kompensasiyanın miqdarı nisbətən çox olur. Belə kompensasiyanı alan şəxs ondan səmərəli istifadə etməklə hər hansı bir biznes işi qura bilər. Lakin bir çox hallarda bu-

nun əksi də baş verə bilər. Vəsaitdən qeyri səmərəli istifadə nəticəsində o tez vaxt ərzində tükənə bilər. Nəticədə yenə də kompensasiya alan şəxsin riskləri artır.

Göstərilən problemlərə baxmayaraq kompensasiyanın birdəfəlik ödənilməsi daha məqbuldur. İşəgötürən öz vəzifəsini yerinə yetirir və beləliklə ədalətli kopensasiya almaq hüququ təmin olunur. Sonrakı risklərin qarşısının alınması isə həmin kompensasiyadan səmərəli istifadə edə bilməyənin şəxsi probleminə çevrilir.

Müəssisələrin ödəmək qabiliyyətinin olmamasının qarşısının alınmasının ən mütərəqqi yolu isə bir çox ölkələrin praktikasında geniş yayılan və Azərbaycan Respublikasının Qanunvericiliyi ilə yol verilən sığorta sisteminin tətbiqidir. Ölkə qanunvericiliyinə görə istehsalat zədələnməsi və ya peşə xəstəliyi nəticəsində işçinin sağamlığına dəymiş zərərə görə işəgötürən tam maddi məsuliyyət daşıyır. Belə hadisə baş verdikdə işəgötürən onu öz vəsaiti ilə ödəyə və ya işçisini belə hallardan sığortalaya bilər. İkinci halda ödənişin həyata keçirilməsi sığorta şirkətinin üzərinə düşəcəkdir. Bu halın tətbiqi həmçinin hazırda istehsalatda baş verən bədbəxt hadislərin gizlədilməsinin də qarşısını alacaqdır. Bu metodun tətbiqi həmçinin bir çox qeyri formal iş yerlərinin formallaşmasına gətirib çıxara bilər.

## TİKİNTİ SEKTORUNDA ƏMƏYİN MÜHAFİZƏSİ VƏ TƏHLÜKƏSİZLİK TEXNİKASI QAYDALARININ POZULMASI NƏTİCƏSİNDƏ İSTEHSALATDA BƏDBƏXT HADİSƏLƏRİN BAŞ VERMƏSİNƏ ŞƏRAİT YARADAN ƏSAS SƏBƏBLƏR

Monitorinq çərçivəsində ölkədə, əsasən də Bakı şəhərində həyata keçirilən tikinti sahələrində monitorinqlər keçirilmişdir. Nəzərə alaraq ki, tikinti sahələrinə kənar şəxslərin, bəzən isə hətta dövlətin nəzarət hüququ olan orqanlarının daxil olması çətindir. Monitorinq zamanı əsasən **daxil olmadan kənardan müşahidə, işçilərlə işdən sonra strukturlaşmamış intervülər, fotoşəkillərin çəkilməsi,** kimi üsullardan istifadə edilmişdir. Monitorinq əsasən hündür mərtəbəli yaşayış və ya qeyri-yaşayış sahələrinin tikildiyi sahələrdə həyata keçirilmişdir. Bütövlükdə 30 tikinti sahəsi monitorinqə cəlb edilmişdir. Monitorinq zamanı Kütləvi İnformasiya Vasitələrində tikintilərdə baş vermiş bədbəxt hadisələrlə bağlı materiallardan da istifadə edilmişdir. Lakin bu məlumatlar yalnız digər alətlər vasitəsi ilə əldə olunan nəticələrin təstiqi üçün istifadə olunmuşdur və əsas məlumat mənbəyi sayılmamışdır.

Monitorinq nəticəsində əldə olunan əsas qənaətlər aşağıdakılardan ibarət olmuşdur:

**Tikinti sektorunda, əsasən də yaşayış və qeyri yaşayış sahələrinin tikintisi, təmiri və rekonstruksiyası ilə bağlı işlərin həyata keçirildiyi sahərlədə Azərbaycan Respublikasının Konstiutsiyasında, ölkənin tərəfdar çıxdığı müvafiq beynəlxalq normalarda, Əmək Məcəlləsində, Texniki təhlükəsizlik haqqında Qanunda və əməyin mühafizəsinə dair digər normativ hüquqi aktlarda əks olunmuş norma və standartlara əməl olunmur. Nəticədə hər kəsin ədalətli və əlverişli əmək şəraitində işləmək hüququ pozulur. Bu hüququn pozulması isə öz növbəsində istehsalatda bədbəxt hadisələrə və peşə xəstəliklərinə gətirib çıxarır.**

Tikinti sahələrində həyata keçirilən monitorinq nəticəsində əl-

də olunan qənaətlər aşağıdakılar olmuşdur:

• Tikinti şirkətlərinin əksəriyyətinin, xüsusən də yüksək mərtəbəli yaşayış binaları tikən və ya belə binalarda təmir rekonstruksiya işləri həyata keçirən şirkətlərin (firma, məhdud məsuliyyətli cəmiyyət və s.) ixtisaslaşmaması.

Ölkədə başlanmış intensiv tikintilər bu sahəni nisbətən tez və yüksək gəlir gətirən sahəyə çevirmişdir. Bu səbəbdən çoxsaylı tikinti şirkətləri, tikinti işləri həyata keçirən Məhdud Məsuliyyətli Cəmiyyətlər yaradılmışdır. Bu şirkət və digər qurumların əksəriyyətinin heç bir əvvəlki və oturuşmuş təcrübəsi yoxdur. Belə müəssisələri təsis edənlərin əksəriyyəti yalnız bir və ya bir neçə binanı tikmək və dərhal çoxlu vəsait əldə etmək məqsədi güdürlər.

Təcrübəli kadr potesialının olmaması, işçilərin peşələr və ixtisaslarının olması deyil, onların minimal əmək haqqı ilə işləməyə razı olmaları əsas götürülür.

• **Tikinti norma və qaydalarına görə tikinti gedən ərazinin çəpərlənməsi demək olar ki, əksər müəssisələr tərəfindən həyata keçirilir. Lakin çəpərləmələr əksəriyyət hallarda standartlara uyğun deyildir. Xüsusən dar küçələrdə çəpərləmələr tikinti sahəsinə demək olar ki, bitişik tikilir;**

• **Tikintinin idarə olunduğu inzibati binalarında və bilavasitə tikinti sahələrində kollektiv mühafizə vasitələri olan təhlükəsizlik plakatları və nişanları ilə təminat yox dərəcəsindədir. Mövcud olan plakatların və nişanların isə heç də hamısı standartlara uyğun deyildir (ölçüləri, rəngi, yazıldığı dil və s.).**

• Tikintiyə başlanılmazdan əvvəl müvafiq icra hakimiyyəti orqanı tərəfindən iş yerinin attestasiyası keçirilmir. Beləliklə də iş yerinin əməyin mühafizəsi və texniki təhlükəsizlik qaydalarına uyğun olması, istifadə olunan avadanlıq və qurğuların fiziki və mənəvi cəhətdən aşınıb-aşınmaması yoxlanılmır;

• Belə müəssisələrdə təhlükəsizlik texnikası üzrə xüsusi mühədis vəzifəsi olmur. İşçilər nəzərdə tutulmuş qaydalara uyğun təhlükəsizlik texnikası qaydalarına dair təlimatlar almırlar. İstifadə olunan texniki vasitələrin işlədilməsi üçün təlimatlar olmur. İş yerlərində əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarına əməl edilməsini təşviq edən əyani vəsaitlər yerləşdirilmir. İşçilər əksəriyyət hallarda xüsusi geyim vasitələri ilə, xüsusən də qoruyucu dəbilqə və çəkmələrlə təmin olunmurlar;

• Baş verən bədbəxt hadisələr zamanı xəsarət alma hallarını əngəlləmək və yaxud minimuma endirmək üçün işçilərin fərdi mühafizə vasitələrindən istifadə edilməsi zəifdir. İşçilərin əksəriyyəti dəbilqəsiz, və xüsusi çəkmələr və geyimlə təmin olunmamışdır;

• Tikinti sahələrində yanğın və digər qəzaların baş verəcəyi halda işçilərin toplanma meydançaları yoxdur. Tikinti norma və qaydalarında nəzərdə tutulduğu

kimi yanğın və digər qəza halları zamanı binanı tərk etmək üçün təxliyyə planlarının tərtib edilmədiyi və ehtiyat çıxışlarının müəyyənləşdirilmədiyi aşkar edilmişdir;

• Mövcud qanunvericiliyə görə işlərin təhlükəsiz görülməsi üçün işə başlamazdan əvvəl təlimatlandırma əksəriyyət hallarda aparılmır;

• Peşə xəstəliklərinin qarşısının alınması məqsədi ilə işə daxil olarkən işçilərin ilkin və dövrü tibbi müayinədən keçirilməsi həyata keçirilmir;

• İsti və soyuq havalarda işçilərin müəyyən vaxtdan bir dincəlmələri və qızınmaları üçün istirahət otaqları yoxdur.

Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş «İlin soyuq vaxtında açıq havada və ya isidilməyən örtülü binalarda, habelə isti havalarda işin dayandırılması və işçilərə fasilələrin verilməsi şərtlərinə» tikintilərdə əməl olunmur.

• Mövcud qaydalara uyğun olaraq işçilərin iş paltarlarının saxlandığı yerlər yarasız vəziyyətdədir və bu paltarların yuyulması həyata keçirilmir (işçilər iş paltarlarını yuyulmaq üçün evə aparırlar. Belə imkanı olmayanlar isə paltarlardan həmişə kirli vəziyyətdə istifadə etmək məcburiyyətində qalır);

• İstehsalatda işçilərin sanitariya və gigiyena qaydalarına əməl etmələrini təmin etmək üçün işçilərin yuyunması üçün lazımi şərait yoxdur. İşdən sonra işçilərin yuyunması üçün duşlar təşkil olunmur;

• Monitorinqin əhatə dairəsinə daxil olan müəssisələr üzrə işçilər içməli su ( adi və qazlı) ilə təmin olunmurlar (Əksəriyyət hallarda işçilərin içmək üçün yararsız olan sudan istifadə etdikləri müşahidə olunmuşdur).

• Böyük təhlükə mənbəyi olan qaz balonlarının saxlanılması (propan, oksigen, karbon ...) üçün xüsusi yerlər bir çox hallarda ayrılmır. Bu balonlar bəzən tikinti sahəsində nizamsız şəkildə yığılıb saxlanılır və istifadə zamanı mövcud təhlükəsizlik qaydalarına əməl olunmur.

• Monitorinq zamanı tikinti sahələrində baş verə biləcək bədbəxt hadisələr zamanı vaxtında ilk tibbi yardımın göstərilməsi üçün müəssisələrin infrastrukturuna daxil olan binalarda və ərazidə dərman preparatları və qutularının olmasına təsadüf edilməmişdir. Bəzi tikinti sahələrində işçilərin etirafına görə iş icrasının iş otağında bəzi dərman və tibbi ləvazımatın olduğu bildirilmişdir;

• Kollektiv mühafizə vasitələrindən biri olan gecə vaxtı bütün ərazinin işıqlandırılmasını təmin edən projektorlarla təchizat əksər müəssisələrdə mövcuddur. Əslində tikinti sahələrində bunun səbəbi təhlükəsizlik qaydalarının təmin olunmasından daha çox gecə vaxtı betontökmə işlərinin təmin edilməsi məqsədi ilə projektorlar qurulmuşdur. Lakin bəzi tikinti sahələrində işıqlandırma zəif təşkil olunmuşdur;

• Monitorinq apardığımız tikinti sahələrinin hamısında iş vaxtından artıq işlərə yol verilir və bu zaman işçilərə hər hansı əlavə ödənişlər həyata keçirilmir;

• Müvafiq icra hakimiyyəti orqanı tərəfindən effektiv nəzarət tam təmin olunmamışdır. Son illərdə əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarının pozulmasına görə nəzərdə tutulan inzibati və cinayət məsuliyyətinin artırılmasına baxmayaraq praktikada bu qaydaları pozanlara qarşı adekvat cəzaların tətbiqi nadir hallarda baş verir.

• Belə tikinti sahələrində çalışan işçilərin əksəriyyəti ilə əmək münasibətləri hər hansı formada rəsmiləşdirilmir. Əksəriyyət hallarda işçilərlə əmək müqavilələri bağlanmır. Digər hallarda isə "ikili mühasibatlıq" aparıldığı üçün işçilərə verilən faktiki əmək haqqı ilə rəsmi əmək haqqı arasında ciddi fərqlər olur.

Ölkənin aparıcı sahələrindən biri olan tikinti sektorunda əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarına əməl olunmanın vəziyyəti bütövlükdə qeyri-qənaətbəxş olsa da bunu bütövlükdə bütün sektora aid etmək düzgün deyildir. Belə ki, ölkədə istehsalatda baş verən bədbəxt hadisələrə və peşə xəstəliklərinə görə yüksək göstəricilər yalnız yaşayış və ya qeyri-yaşayış sahələrinin tikintisi, təmiri və rekonstruksiyası ilə bağlı həyata keçirilən sahələrdə yüksəkdir. Xarici ölkə Şirkətlərinin də iştirak etdiyi digər tikinti sahələrində, o cümlədən nəqliyyat-kommunikasiya vasitələrinin, tunel və ötürücülərin tikintisi, həmçinin iri neft platformalarının, terminalların, onlarla bağlı infrastruktur sahələrinin tikitisi zamanı istehsalatda bədbəxt hadisələrin göstəriciləri aşağıdır və həmin tikintilərdə əməyin mühafizəsi qaydalarına əməl olunma göstəriciləri standartlara uyğundur.

*Yaşayış və qeyri yaşayış sahələrinin tikintisi, təmiri və rekonstruksiyası ilə bağlı işlərin həyata keçirildiyi sahələr də həyata keçirilən monitorinq bu sahədə əməyin mühafizəsi qaydalarına zidd olan əsas uyğunsuzluqlar aşağıdakılardır:*

• Monitorinqin həyata keçirildiyi tikinti sahələrində işəgötürənlər tərəfindən iş yerinin attestasiyasının həyata keçirilməməsi;

• Tikintidə çalışanların ilkin və dövrü tibbi müayainədən keçirilməməsi;

• Güclü külək və ya isti havalarda temperaturun aşağı salınması və küləyin qarşısının süni şəkildə alınması mümkün olmayan yerlərdə işin dayandırılmaması;

• Təhlükəsizlik texnikası qaydalarına əməl olunmasına dair təlimatlandırma işlərinin həyata keçirilməməsi və heç bir jurnalların olmaması;

• Təhlükəsizlik texnikası qaydalarına dair əyani vəsaitlərin və plakatların tikinti sahələrində yerləşdirilməməsi;

• İşçilərin xüsusi geyim və fərdi təhlükəsizlik vasitələri ilə təmin olunmaması;

- Tikinti sahələrində tibb məntəqələrinin, dərman pereparatlarının və ilk tibbi yardım vasitələrinin olmaması;
- İşçilərlə əmək müqavilələrinin bağlanmaması və ya Əmək Məcəlləsinin 43-cü maddəsinin tələblərinə uyğun bağlanmaması;
- Xüsusi təhlükə mənbəyi olan qaz balonlarının xüsusi yerlərdə saxlanılmaması;
- İşçilərin iş vaxtından artıq işlərə mütəmadi olaraq cəlb olunması;
- İşçilərin iş paltarlarının yuyulmaması və yuyunmaq üçün duşların olmaması;
- İş yerində işçilərin içməli su ilə təmin olunmaması və fasilə zamanı yemək üçün xüsusi yerlərin olmaması;

### *Uyğunsuzluqlara şərait yaradan səbəblər*

- Tikinti sektorunda, əsasən də yaşayış və qeyri yaşayış sahələrinin tikintisi, təmiri və rekonstruksiyası ilə işləri həyata keçirən tikinti təşkilatlarının əksəriyyətinin həyata keçirilən tikinti işləri ilə bağlı uzunmüddətli iş təcrübəsinin olmaması və bu tikinti təşkilatlarının müvəqqəti məqsədlər üçün yaradılması;
- Rəsmi və qeyri-rəsmi maliyyə məsrəflərinin yüksək olması tikinti işlərinin maya dəyərini artırır. Tikintini həyata keçirən sahibkarlar isə daha çox qazanc əldə etmək istəyir. Nəticədə əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarının təmin olunmasına yönəlməli olan xərclərin həddən artıq azaldılmısı;
- İşəgötürənlərin səriştəsizliyi və məsuliyyətsizliyi. Kvalifikasiyalı kadrların və müvafiq sahə üzrə mühədis texniki işçilərin tikintiyə cəlb olunmaması;
- Məsuliyyətsizliyə şərait yaradan effektiv nəzarət mexanizmlərinin olmaması;
- İstehsalatda baş verən bədbəxt hadisələrə görə inzibati məsuliyyətin və cinayət təqibinin tam həyata keçirilməməsi;
- İşçilərin öz hüquqlarını lazımi səviyyədə bilməməsi;
- İşçinin iş yerini itirmək təhlükəsinin olması və bu səbəbdən onların tələb irəli sürmək imkanınını olmaması;
- Həmkarlar ittifaqlarının olmaması;
- İşçilərlə əmək münasibətlərinin rəsmiləşdirilməməsi, o cümlədən əmək müqavilələrinin bağlanılmaması;
- Sifarişçilər tərəfindən əməyin mühafizəsi və təhlükəsizlik texnikasına nəzarətin idarəedilməsi barədə rəsmi sənədlərin tələb edilməməsi və bu işə nəzarətin zəif aparılması;
- İstifadə olunan avadanlıqların fiziki və mənəvi cəhətdən aşınmış vəziyyətdə olması, yeni texnikadan istifadə etmək bacarığının aşağı olması;
- Əməyin mühafizəsi və təhlükəsizlik texnikasına dair normalara əməl olunmaması.

## İSTEHSALAT ZƏDƏLƏNMƏSI VƏ PEŞƏ XƏSTƏLIKLƏRI NƏTICƏSINDƏ ZƏRƏRÇƏKƏNLƏRIN KƏMIYYƏT GÖSTƏRICILƏRI

Qeyd olunduğu kimi istehsalatda baş verən bədbəxt hadisələr nəticəsində zərərçəkənlərin statistikası qeyri dəqiqdir. Dövlət statistika orqanları onlara daxil olan məlumatları təsnifatlaşdırıb statistik göstəriciləri tərtib edirlər. Lakin istehsalatda baş verən bədbəxt hadisələrin əksəriyyəti, xüsusən də kiçik zədələnmələrin demək olar ki, hamısı gizlədilir. İşəgötürənlər işçiləri şirnikləndirərək, yaxud onların öz hüquqlarını bilməmələrindən sui-istifadə edərək zərərçəkənlərə aldıqları zədələrin iş yerində deyil məişətdə baş verməsini etiraf etməyə sövq edirlər. Nəticədə əksəriyyət zədələnmələr istehsalat zədələnməsi kimi deyil, məişət zədələnməsi kimi qeydə alınır. Peşə xəstəlikləri ilə bağlı isə vəziyyət daha da acınacaqlıdır. Belə ki, peşə xəstəliklərinin statistikası Səhiyyə Nazirliyinnin məlumatları əsasında hazırlanır. Əksəriyyət hallarda işçilər aldıqları xəstəliklərin istehsalatla bilavasitə bağlı olduğunu sübut edə bilmirlər. Baxmayaraq ki, müvafiq icra hakimiyyəti orqanı tərəfindən belə xəstəliklərin iş yerləri üzrə təsnifatı aparılıb və müvafiq siyahı təstiq olunmuşdur.

Monitorinq çərçivəsində Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası müxtəlif dövlət orqanlarına, o cümdələn Dövlət Statistika Komitəsinə müvafiq informasiya sorğuları göndərərək son üç ilə ərzində istehsalatda baş vermiş bədbəxt hadisələr və ya peşə xəstəlikləri nəticəsində zərərçəkənlər barədə rəsmi məlumatları əldə etmişdir. Bu məlumat aşağıdakı kimidir.

(2005-2007-ci illər üzrə)

| İqtisadi fəaliyyət istiqamətləri üzrə istehsalatda zədələnmələr | 2005 | 2006 | 2007 |
|---|---|---|---|
| İstehsalatda bədbəxt hadisələr nəticəsində Zərərçəkənlərin sayı –cəmi, nəfər | 189 | 273 | 330 |
| o cümlədən: Mədənçıxarma sənayesi və karxanaların işlənməsində | 37 | 65 | 6 |
| Emal sənayesində | 36 | 64 | 58 |
| Elektirik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsində | 16 | 10 | 9 |
| Tikintidə | 40 | 56 | 169 |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitədə | 12 | 20 | 8 |
| Digər iqtisadi fəaliyyət növlərində | 48 | 58 | 80 |
| | | | |
| Onlardan bədbəxt hadisələr zamanı ölənlərin sayı-cəmi nəfər | 54 | 81 | 128 |
| o cümlədən | | | |
| Mədənçıxarma sənayesi və karxanaların işlənməsində | 5 | 16 | 1 |
| Emal sənayesində | 3 | 13 | 16 |
| Elektirik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsində | 10 | 8 | 8 |
| Tikintidə | 14 | 17 | 68 |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitədə | 5 | 8 | 2 |
| Digər iqtisadi fəaliyyət növlərində | 17 | 19 | 33 |
| Peşə xəstəliklərinə düçar olanların sayı | 300 | 350 | 301 |

## EKSPERTLƏRLƏ STRUKTURLAŞMAMIŞ İNTERVÜLƏR

Monitorinq çərçivəsində tətbiq olunan monitorinq alətlərindən biri də əməyin mühafizəsi və təhlükəsizlik texnikası məsələləri üzrə mütəxəssis olan şəxslərlə strukturlaşmamış intervülərin keçirilməsi olmuşdur. Bu alətin tətbiqində əsas məqsəd müəssisələrdə əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarının pozulmasına şərait yaradan səbəbləri öyrənmək idi. İntervülərə 15 nəfər ekspert cəlb olunmuşdur. Ekspertlər elə seçilmişdir ki, onlar istehsalın bir sıra aparıcı sahəsində çalışınlar və ya çalışmış tanınmış mühədislər, həmkarlar ittifaqlarında əməyin mühafizəsi üzrə müfəttiş işləyən və ya işləmiş şəxslər, hüquqşünaslar (əsasən istehsalatda hüquqi məsələlərlə bağlı əmək fəaliyyəti olan hüquqşünaslar) olmuşdur.

Strukturlaşdırılmamış intervülərə cəlb edilənlərin qarşısında əsasən aşağıdakı suallar qoyulmuşdur:

1. Sizcə iş yerlərində əməyin mühafizəsinə dair tələblərin yerinə yetirilməsinə hüquqi əsas verən normalar təkmildirmi?

2. Müəssisələrdə əməyin mühafizəsi qaydalarına əməl olunmasının göstəricilərinə dair fikirləriniz.

3. Əməyin mühafizəsi qaydalarına şərait yaradan əsas səbələr hansılardır?

4. Əməyin mühafizəsi qaydalarına əməl edilməsi üçün müəssisə və sahə daxili nəzarət effektivdirmi?

5. Əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə müəssisələrdə ştatlar vardırmı və bu ştatlar üzrə çalışanlar səriştəlidirmi?

6. Əməyin müzafizəsi qaydalarının təmin olunmasına dövlət nəzarəti nə dərəcədə effektivdir?

7. Əməyin mühafizəsi qaydalarının təmin olunmasına ictimai nəzarət vardırmı və əgər vardırsa o nə qədər effektivdir.

Ekspertlərin demək olar ki, hamısı hesab edir ki, əməyin mühafizəsi və təhlükəsizlik texnikası ilə bağlı normativ bazanın təkmilləşdirilməsinə ehtiyac olsa da hazırkı normaların düzgün tətbiqi iş yerlərində əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarını təmin etməyə imkan verir. Əsas problem normalarda olan boşluqlar və ya çatışmamazlıqlar

deyil, bu normaların qüsurlu tətbiqidir.

Ekspertlər qeyd etmişdir ki, əməyin mühafizəsi və təhlükəsizlik qaydaların təmin olunmasına daha çox dövlət təşkilatlarında (büdcə təşkilatları və ya dövlətin tabeçiliyində olan təsərrüfat subyektləri) ciddi yanaşılır. Bu təşkilatlarda əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarına əməl olunmasını təmin etmək məqsədi ilə vəsait ayrılır, işçilər xüsusi geyimlərlə təmin olunur, əyani vəsaitlərdən istifadə olunur, işçilər zəruri hallarda tibbi yoxlamalardan keçirilir və təlimatlandırılırlar.

Qeyd olunmaldır ki, təşkilatın əvvəlki monitorinqləri zamanı da dövlət təşkilatlarında əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarına əməl olunma göstəriciləri özəl təşkilatlara nisbətən xeyli yüksək olmuşdur. Belə ki, 30 istiqamət üzrə, faktiki vəziyyətin qiymətləndirilməsi üzrə göstəricilər hər bir qiymətləndirmə kriteriyası üzrə 65- 80 % təşkil etmişdir.

Ekspertlər özəl sektorda əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarına əməl olunma göstəricilərinin həddən artıq aşağı olduğunu göstərmişlər. Beəl müəssisələrdə, xüsusən də tikinti, o cümlədən yaşayış və qeyri yaşayış sahələrinin tikintisi, təmiri və rekonstruksiyası həyata keçirilən sahələrdə, yol, yol qovşaqları, şəhərsalma işlərinin həyata keçirildiyi sahələr, dülgər sexləri, qapı-pəncərə konstruksiyaları hazırlayan sexlər, ticarət, iyaşə, qaraj təsərrüfatı və s. özəl sahələrdə vəziyyət acınacaqlıdır. Bu müəssisələrin əksəriyyətində ümumiyyətlə əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydaları üzrə mühəndis ştatı ya yoxdur, yaxud vakantdır.

Əksəriyyət özəl müəssisələrdə işçilər tibbi yoxlamalara cəlb edilmir, onlar giriş, cari və vaxtaşırı təlimatlandırma proseslərinə cəlb olunmur, iş rejiminə əməl olunmur, işçilərin istirahət hüquqları pozulur, iş yerləri sanitar gigiyenik normalara cavab vermir. İşçilərin istirahəti və qidalanması üçün heç bir şərait yoxdur.

Ekspertlər bu cür vəziyyəttə şərait yaradan əsas səbəbləri, effektiv daxili və dövlət nəzarətinin olmaması, korrupsiya, vergidən və sosial ödəmədən yayınma, əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarına əməl olunması üçün nəzərdə tutulan vəsaitin xərclənməməsi, işçilərin peşəkarlığının aşağı olması, mühəndis-texniki heyətin təcürbəsizliyi, rəhbərlərin məsuliyyətdən qaçmaq imkanlarının olmasında göstərmişlər.

Ekspertlərin bir qismi son dövrlərdə dövlət nəzarətinin effektivliyinin artmasını göstərsələr də, digər ekspertlər vəziyyətin ciddi şəkildə dəyişmədiyini bildirmişlər. Əksinə müəssisələrə daha çox yoxlama məqsədi ilə gəlmələrin sayının artması işəgötürənləri daha da çətin vəziyyətə salmışdır. Bəzi işəgötürənlər qeyd etmişdir ki, əməyin mühafizəsi və təhlükə-

sizlik texnikası qaydalarına əməl olunub-olunmamasından asılı olmayaraq onlar qeyri rəsmi xərclər ödəmək məcburiyyətindədirlər və yoxlamaların əsas məqsədi vəziyyətin yaxşılaşdırılması deyil, şəxsi maraqların təmin olunmasıdır. Bununla belə həmkarlar ittifaqlarının fəaliyyət göstərdiyi müəssisələrdə vəziyyət nisbətən yaxşıdır. Müəssisələrdə həmkarlar ittifaqlarının fəaliyyətinə şərait yaradılması faktının özü mühüm göstərici kimi qeyd olunmuşdur. Deməli işəgötürənlər dövlət və qanun qarşısında məsuliyyət hissinə malikdirlər və ictimai nəzarətin mümkünlüyünə normal yanaşırlar.

Bütövlükdə ekspertlərin əksəriyyəti vəziyyətin köklü şəkildə dəyişdirilməsinə ciddi ehtiyac olduğunu bildirmiş və bu sahədə təklif və tövsiyyələr vermişlər.

## MONİTORİNQİN NƏTİCƏLƏRİNƏ DAİR YEKUN RƏY VƏ TÖVSIYYƏLƏR

Ölkənin əmək sferasında istehsalatda bədbəxt hadisələrin baş verməsinin və bunun nəticəsində işçilərin peşə əmək qabiliyyətlərini uzun müddət itirmələri və ya bədbəxt hadisə nəticəsində həlak olan işçilərini sayının ilbəil artması fonunda müvafiq dövlət orqanları tərəfindən əməyin mühafizəsinə dair normaların sərtləşdirilməsi müsbət nəticələrə gətirib çıxarmır. İnzibati məsuliyyətin, o cümlədən maddi məsuliyyətin göstəricilərinin olduqca yüksək həddə qaldırılması da bu sahədə vəziyyəti yaxşılaşdırmamışdır. Bununla belə iş yerlərində əməyin mühafizəsi, ümumiyyətlə əmək normalarına və qaydalarına əməl edilməsinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanı ölkənin əmək sferasında effektiv nəzarəti təmin edə bilməmişdir. Bunun həm obyektiv, həm də subyektiv səbəbləri vardır.

Ölkənin əmək bazarının xeyli hissəsinin qeyri-formal sektorunda olması da bu nəzarətin effektivliyini aşağı salır.

Digər tərəfdən əməyin mühafizəsi tələblərinə əməl olunmamasının nəticəsi olaraq bədəxt hadisələrlə yanaşı peşə xəstəliklərinin də dinamikası yüksələn xətlə inkişaf edir. Bu hesabatda yalnız rəsmi dövlət statistikasına istinad edilən rəqəmlər də bunu aşkar şəkildə göstərir. Baxmayaraq ki, təşkilatın əvvəllərdə həyata keçirdiyi monitorinqlərin nəticələrinə istinad edib demək olar ki, rəsmi statistika əslində real vəziyyəti tam əks etdirmir. Əslində istehsalatda baş verən bədbəxt hadisələr və peşə xəstəlikləri rəsmi statistikada göstərilən rəqəmlərdən dəfələrlə çoxdur.

***2007-ci ildə və 2008-ci ilin birinci yarsında istehsalatda baş verən bədbəxt hadisələri analiz edərək onu doğuran səbəblər müəyyən edilmişdir***

- İstehsalatın qeyri-qənaətbəxş təşkili;
- Texnoloji proseslərin pozulması;
- İşçilərin əməyin mühafizəsi tələblərini yerinə yetirmək üçün

hazırlanmaması və ya qeyri-qənaətbəxş hazırlanması;

- İşçilərin istifadə etdikləri əmək vasitələri ilə dügün davranmaq vərdişlərinin və biliklərinin olmaması;
- İşçilərin texniki təhlükəsizlik qaydalarına əməl etməməsi, əmək intizamını pozması;
- İş icraçılarının, sex rəislərinin, briqadirlərin və s. İstehsalat prosesində işçilərə bilavasitə rəhbərlik edənlərin səhlənkarlığı və təcrübəsizliyi;

***Həmin dövr ərzində baş vermiş peşə xəstəliklərini doğuran səbəblər aşağıdakılar olmuşdur:***

- İş yerlərində zəruri sanitar gigiyenik şəraitin olmaması;
- İşçilərin tibbi yoxlanışdan keçirilməməsi (zəruri iş yerlərində);
- Hava axınından mühafizənin olmaması;
- İşçilərin zəruri qoruyucu vasitələrlə təchiz edilməməsi;
- İşçilərin soyuq və isti hava şəratində xüsusi geyim vasitələri ilə təchiz edilməməsi;
- İstifadə olunan avadanlıqların texniki standartlara cavab verməməsi və s.

Monitorinq zamanı müəyyən edilmişdir ki, bir çox müəssisələrin rəhbərləri, xüsusən də kiçik müəssisələrdə əməyin mühafizəsi ilə bağlı hər hansı qabaqlayıcı tədbirlər həyata keçirmirlər, onlar yalnız baş vermiş bədbəxt hadisə zamanı hər hansı tədbirlər həyata keçirir ki, bu da vəziyyətin düzəlməsinə əhəmiyyətli təsir etmir. Xüsusən də özəl sektora daxil olan müəssisələrdə, xüsusən də tikinti sektorunda (bu barədə ayrıca qeyd olunub) əməyin mühafizəsi ikinci, bəzən isə sonuncu vəzifə kimi qəbul olunur. Bu isə öz növbəsində belə müəssisələrdə çoxsaylı pozuntulara, bu pozuntular isə istehsalat zədələnməsi və peşə xəstəliklərinin baş verməsinə gətirib çıxarır.

Uzun illər boyu davam etməkdə olan bu vəziyyətin inzibati yollarla tənzimlənə bilməməsi, vəziyyətə yeni baxış və yeni yanaşma tələb edir. Burada təkcə nəzarət orqanının səlahiyyətlərinin artırılması, qanunvericiliyin sərtləşdirilməsi ciddi nəticələrə gətirib çıxarmayacaqdır. Yaranmış vəziyyət əməyin mühafizəsi istiqamtəində idarəetmənin prinsipial olaraq yeni əsaslarla qurulmasını tələb edir. Yeni sistemin formalaşdırılmasında əsas diqqət sığorta sisteminin inkişaf etdirməklə yanaşı kompleks hüquqi, texnoloji, sosial, iqtisadi, sanitar-gigiyenik tədbirlərin həyata keçirilməsi yolu ilə risklərin minimumlaşdırılmasına səy göstərməkdir.

***Yuxarıda qeyd olunanları nəzərə alaraq aşağıdakı təkliflərin həyata keçirilməsi zəruridir:***

- İş yerlərində əmək şəraitinin kompleks şəkildə qiymətləndirilməsi, istehsalat zədələnmələrinin və digər bədbəxt hadisələ-

rin qarşısının alınması məqsədi ilə müvafiq icra hakimiyyəti orqanı, Həmkarlar İttifaqlarının müvaıfiq sahə üzrə Respublika Komitələri ilə birgə, yerlərdə isə bu orqanların yerli nümayəndəlikləri vasitəsi ilə dövrü olaraq monitorinqlər həyata keçirməli, nəticələrə uyğun olaraq tədbirlər planı hazırlayaraq həyata keçirməlidirlər;

• Əməyin mühafizəsi sahəsində mövcud olan qanunvericilik və normativ baza daha da təkmilləşdirilməlidir. Əməyin mühafizəsi sahəsində mövcud olan normativlər, o cümlədən sanitar-gigiyenik normativlər beynəlxalq standartlara uyğunlaşdırılmalıdır. Əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarının təmin edilməsi məqsədi ilə yeni normativ sənədlər qəbul olunmalıdır;

• Bütün istehsal və qeyri-istehsal sahələri əməyin mühafizəsi və təhlükəsizlik texnikası tələblərinə uyğun olaraq sertifikatlaşdırılmalı və bu tələblərə cavab verməyən müəssisələrdə iş prosesi dayandırılmalıdır. İş yerlərinin attestasiyası mütamadi olaraq keçirilməlidir;

• Zərərli iş yerlərində çalışanlar üçün əlavə güzəştlər və kompensasiyalar verilməli, sağlamlığın bərpası üçün işçilər müvafiq profilaktika müəssisələrinə göndərilməlidirlər. İşçilərin sanatoriya-kurort müalicəsinin təşkili üçün əlavə vəsaitlər axtarılmalı, bu istiqamətə əlavə vəsaitin ayrılması üçün işəgötürənlər üzərində imperativ öhdəliklər qoyulmalıdır;

• İstehsalat zədələnməsinə məruz qalanlar və peşə xəstəliklərinə tutulanlar və ya bu səbəblərdən ölənlərin vərəsələri üçün aylıq kompensasiyaların ödənilməsində sığorta sisteminə üstünlük verilməlidir. İlkin mərhələdə iri məbləğdə kompensasiyaları ödəmə qabiliyyəti olmaması əvvəlcədən bəlli olan riskli iş sahələrində işəgötürənlər üçün işçilərin bədbəxt hadisə və peşə xəstəliklərindən sığortalanması məcburi olmalıdır. Daha sonra isə sığorta sistemi bütün iş yerlərinə tətbiq olunmalıdır;

• İstehsalatda baş verən bədbəxt hadisə və ya peşə xəstəliyi nəticəsində işçi peşə əmək qabiliyyyəti tam və ya qismən itirdikdə və ya bu səbəblərdən işçi həlak olduqda Nazirlər Kabinetinin 2003-cü il 9 yanvar tarixli 3 nömrəli qərarında göstərilən aylıq kompensasiyanın, birdəfəlik kompensasiya ilə əvəzlənməsi üçün müvafiq tədbirlərin həyata keçirilməsi zəruridir. Bu tədbirlər sırasında qərara müvafiq dəyişikliklərin edilməsi ilə yanaşı sığorta sisteminin təkmilləşdirilməsi üçün də müvafiq tədbirlərin həyata keçirilməsi vacibdir.

• Peşə xəstəliklərini doğuran səbəblər araşdırılaraq profilaktiki tədbirlər həyata keçirilməlidir.

• Əmək sferasında Dövlət nəzarəti effektiv surətdə yenidən təşkil edilməlidir. Yalnız inzibati məsuliyyətin artırılması iş yerlərində əməyin mühafizəsi və təhlükəsizlik qaydalarının təmin edilməsi

mümkün deyildir. Nəzarət orqanının səlahiyyətləri artırılmalıdır və ona müəssisələrin əməyin mühafizə tələblərinə cavab verməsinin auditini keçirmək, sertifikatlaşdırma aparmaq sahəsində xüsusi səlahiyyətlər verilməlidir.

- Cinayət Məcəlləsinin 162-ci maddəsində Əməyin mühafizə qaydalarının pozulmasına görə cinayət cəzası müəyyən olunmuşdur. Amma bu cəza artıq baş vermiş bədbəxt hadisəyə görə tətbiq olunur. Bu baxımdan məcəllədə iş yerlərində əməyin mühafizəsinə və təhlükəsizlik texnikası qaydalarının kobud pozulmasına görə də cinayət cəzasının nəzərdə tutulması məqsədə uyğundur. Mövcud olan müəssisələrdə və yeni yaranan müəssisələrdə (xüsusən tikinti sahələrində) iş yerlərinin məcburi attestasiyası keçirilməli, bu tələblərə cavab verməyən müəssisələrin fəaliyyəti dərhal dayandırılmalı və pozuntunun miqyasına uyğun olaraq inzibati və ya cinayət işi başlanılmalıdır.

**Vətəndaşların Əmək**
**Hüquqlarını Müdafiə Liqası**

**AZƏRBAYCAN RESPUBLİKASINDA**
**ƏMƏYİN MÜHAFİZƏSİ**

**QANUNVERİCİLİK VƏ PRAKTİKA**

**MONİTORİNQİN NƏTİCƏLƏRİNƏ DAİR HESABAT**

**Çapa imzalanmışdır**: 29.12.2008
**Kağız formatı:** 70x100 1/16
**H/n həcmi:** 3 ç.v.
**Sifariş:** 440
**Sayı**: 500

Kitab «ADİLOĞLU» nəşriyyatında nəşrə hazırlanmışdır.
*Tel.: 498-68-25;  418-68-25; faks: 498-08-14;*
*Web: www.adiloglu.az;*
*E-mail: info@ adiloglu.az*

«İlay» MMC-nin mətbəəsində
hazır diapozitivlərdən
istifadə olunmaqla ofset üsulu ilə çap edilmişdir.
*Ünvan: Bakı şəh., Şərifzadə küç., 202.*
Тел.:433-00-43